№ 10 (953) 10-15 mart 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

*Millət vəkili kimi əldə etdiyim təcrübə əvəzsizdir. Vəzifəmdən, fəaliyyətimin istiqamətindən asılı olmayaraq, mən həyatda sadə prinsiplərə arxalanmışam. Çalışmışam heç zaman unutmayım ki, vicdan və ləyaqət, mərhəmət və xoş niyyət, ədalət və qarşılıqlı hörmət Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlərdir. Mənə inanan hər bir insanı bu yüksək tribunadan əmin etmək istərdim ki, gələcək fəaliyyətimdə də mənəvi dəyərləri üstün tutacağam.*



## Azərbaycanın müstəqilliyinin qorunması, ölkəmizin hərtərəfli inkişafı üçün tam gücümlə çalışacağam

### Deputat fəaliyyətinə xitam verən Mehriban xanım Əliyeva Milli Məclisdə 12 illik fəaliyyətini böyük ömür məktəbi kimi qiymətləndirdi

Martın 7-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva iclasda iştirak edib.

Mehriban Əliyevanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi münasibətilə parlamentin adından təbrik edən Milli Məclisin sədri Oqtay ƏSƏDOV deyib:

-Mehriban Əliyeva 12 ilə yaxın bir müddətdə Milli Məclisin deputatı kimi fəaliyyət göstərib, xalqımıza, dövlətimizə xidmət edib. Mehriban Əliyeva ölkəmizdə parlament mədəniyyətinin inkişafına çox böyük önəm verib, dövlətimizin qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edib. Xanım Mehriban Əliyeva bir sıra qanunvericilik aktlarının təşəbbüskarı olub. Eləcə də dörd amnistiya aktının müəllifidir. Hər amnistiya aktı on min məhbusa şamil olunurdu. Həm amnistiyaya düşmüş insanların, həm də onların yaxınlarının sayını nəzərə alsaq, Mehriban xanım Əliyevanın nə qədər insana, ailəyə sevinc bəxş etdiyini görmək mümkündür.

Milli Məclisdəki fəaliyyəti dövründə Mehriban Əliyeva ABŞ, Fransa parlamentlərarası dostluq qruplarının rəhbəri, Türkiyə, Rusiya parlamentlərarası dostluq qruplarının üzvü olub. Beləliklə, Mehriban xanım Əliyeva Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafında böyük işlər görüb, Azərbaycan parlamentini xaricdə layiqincə təmsil edib. O, xalqımızı düşündürən problemləri beynəlxalq ictimaiyyətə çatdırmaq üçün mümkün olan hər şeyi edib. Bir sıra digər ictimai-siyasi vəzifələrlə yanaşı, Mehriban Əliyeva həm də Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. Bu partiyanın möhkəmlənməsi, sıralarının artması üçün çox böyük əmək sərf edir.

Mehriban Əliyevanın geniş xeyriyyəçilik fəaliyyəti hər kəsə məlumdur. Mehriban xanım Əliyeva həm də Heydər Əliyev Fondunun prezidentidir. Dara düşən, yardıma ehtiyacı olan insanlar bir çox hallarda Mehriban Əliyevaya üz tuturlar. O da həmişə insanların harayına çatır, onlara hayan durur. Buna görə də Mehriban Əliyeva, sözün həqiqi mənasında, millət vəkilidir. Mən əminəm ki, o, yeni vəzifəsində də millətimizin, xalqımızın vəkili olaraq qalacaq. Biz əminik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə Mehriban Əliyevanın təyin edilməsi ölkəmizin ictimai-siyasi həyatına yeni bir nəfəs gətirəcək. Bizim üçün ikiqat fərəhlidir ki, bu məsul dövlət vəzifəsinə bizim həmkarımız Mehriban Əliyeva məsləhət bilinib. Bu qərarına görə möhtərəm Prezident İlham Əliyevə Milli Məclis adından dərin minnətdarlığımızı bildiririk. Əminik ki, bu vəzifəsində də Mehriban xanım Əliyeva hər zaman olduğu kimi xalqına, dövlətinə xidmət edəcək.

Xanım Mehriban Əliyeva iclasda çıxış edib.

**Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı**

-Hörmətli Oqtay müəllim.

Hörmətli millət vəkilləri.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamına əsasən, yeni vəzifəyə təyin edilməyimlə əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisində fəaliyyətimi dayandırmalı oluram. Mən on ildən artıq parlament üzvü olmuşam. Bu illər ərzində Azərbaycan Milli Məclisinin deputatı adını daşımaq mənim üçün böyük şərəf idi. Müstəqillik illərində ölkəmizin nüfuzlu dövlət kimi formalaşmasında Milli Məclisin deputat korpusunun da böyük rolu olmuşdur. Azərbaycanda həyata keçirilən islahatların hüquqi bünövrəsini millət vəkillərinin birgə əməyi nəticəsində hazırlanan, müasir reallıqlara və çağırışlara cavab verən qanun layihələri təşkil edir.

Əziz həmkarlar, millət vəkili kimi çalışdığım müddət ərzində burada daim xoş ab-havanın şahidi olmuşam. Təbii ki, belə mühitin yaradılmasında Milli Məclisin sədri Oqtay müəllimin böyük əməyi vardır. O, on ildən artıqdır ki, Milli Məclisin sədri vəzifəsini layiqincə icra edir. Hörmətli Oqtay müəllim, sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli millət vəkilləri, namizədliyimin irəli sürüldüyü Xəzər rayonunun ərazisində 2005-ci ildən bu günədək aparılmış işlər barədə qısa məlumat vermək istərdim. Bu müddət ərzində rayonda 42 məktəb, 44 uşaq bağçası, 16 uşaq evi və internat məktəbi, o cümlədən 3 uşaq evi üçün yay düşərgəsi inşa olunub və ya əsaslı təmir edilib. 17 səhiyyə müəssisəsi, 10 idman obyekti, o cümlədən 6 stadion, mədəniyyət evləri, kitabxanalar, muzeylər daxil olmaqla 28 mədəniyyət obyekti, 7 məscid və ziyarətgah istifadəyə verilib. Bundan əlavə, rayonun Şüvəlan, Binə, Türkan və Zirə qəsəbələrində əhalinin qaz və elektrik enerjisi ilə təminatı yaxşılaşdırılıb, Şüvəlan, Binə və Qala qəsəbələrində su xətləri çəkilib, rayon ərazisində ümumi uzunluğu 93 kilometr olan yollar salınıb. Bu illər ərzində irimiqyaslı, uzunmüddətli layihələrlə yanaşı, gündəlik həyatda insanları narahat edən problemlərin araşdırmasını daim ön plana çıxarmışam. Mənə müraciət edən insanlara dəstək olmağa çalışmışam. Fəaliyyətimin bütün mərhələlərində mən rayon sakinlərinin dəstəyini hiss etmişəm. Bizim ünsiyyətimiz formal yox, hər zaman çox səmimi olub. Mən tam əminliklə deyə bilərəm ki, əldə etdiyimiz bütün nailiyyətlər bizim birgə fəaliyyətimiz nəticəsində həyata keçirilib. Bu illər ərzində məni dəstəkləyən hər kəsə dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, gələcəkdə də Xəzər rayonunun inkişafı üçün tam gücümlə çalışacağam.

Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunduğum müddət ərzində bir sıra təkliflər irəli sürmüşəm. Humanizm və ədalət ideallarına əsaslanaraq 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə irəli sürdüyüm amnistiya aktlarının qəbul edilməsi təşəbbüsü həmkarlarım tərəfindən daim dəstəklənib. Nəticə etibarilə amnistiya elan edilməsi haqqında qərarlar əsasında, ümumilikdə, 39 min 887 məhkum cəzadan azad edilib. Mən amnistiya təşəbbüslərini dəstəkləmiş və bununla da on minlərlə insana azadlıq bəxş etmiş deputatların hər birinə dərin minnətdarlığımı çatdırıram. Ümidvaram ki, belə təşəbbüslər deputatlarımız tərəfindən bundan sonra da irəli sürüləcək və bu xoş ənənə davam edəcək.

Səhiyyə ilə bağlı bəzi məsələləri xüsusi vurğulamaq istərdim. Bildiyiniz kimi, səhiyyə sahəsi rəhbərlik etdiyim Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biridir. Fondun 2005-ci ildən həyata keçirməyə başladığı "Talassemiyasız həyat naminə" proqramı tez bir zamanda geniş vüsət aldı. Bizim təşəbbüsümüzlə məsələ parlamentdə müzakirəyə çıxarıldı və qısa müddət ərzində "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu Milli Məclis tərəfindən qəbul edildi. Fondun təşəbbüsü ilə Bakıda inşa edilmiş Talassemiya Mərkəzi regionda sümük iliyinin köçürülməsini mümkün edən ən müasir avadanlıqla təchiz edilmiş yeganə tibbi müəssisədir. Mərkəz fəaliyyətə başladığı gündən burada 40-dan çox uşaq üzərində sümük iliyi transplantasiyası əməliyyatı aparılıb.

Ümumiyyətlə, ölkəmizdə irsi qan xəstəliklərinin yayılması məni bir həkim kimi narahat edir. Azərbaycanda sağlam ailənin formalaşması və bu istiqamətdə risklərin azaldılması məqsədilə mən 2014-cü ildə nikaha daxil olmaq istəyən şəxslərin məcburi tibbi müayinədən keçməsi təşəbbüsü ilə çıxış etdim. Həmkarlarımla ətraflı müzakirədən sonra Ailə Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi haqqında qanun qəbul olundu.

Mənim təşəbbüsümlə dünyada Azərbaycanı çoxmillətli, tolerant, çoxkonfessiyalı ölkə kimi tanıtmaq üçün bir çox tədbirlər keçirilib. Bütün çıxışlarımda Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayonun - ərazimizin 20 faizinin işğal olunması, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün şəraitində yaşaması haqqında həqiqəti dünya ictimaiyyətinə çatdırmışam. Heydər Əliyev Fondu tərəfindən Xocalı faciəsi haqqında hazırlanan nəşrlər bütün dünyaya yayılıb.

Əziz həmkarlar, mən Milli Məclisdə 12 illik fəaliyyətimi böyük bir ömür məktəbi kimi qiymətləndirirəm. Millət vəkili kimi əldə etdiyim təcrübə əvəzsizdir. Vəzifəmdən, fəaliyyətimin istiqamətindən asılı olmayaraq, mən həyatda sadə prinsiplərə arxalanmışam. Çalışmışam heç zaman unutmayım ki, vicdan və ləyaqət, mərhəmət və xoş niyyət, ədalət və qarşılıqlı hörmət Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlərdir. Mənə inanan hər bir insanı bu yüksək tribunadan əmin etmək istərdim ki, gələcək fəaliyyətimdə də mənəvi dəyərləri üstün tutacağam. Azərbaycanın müstəqilliyinin qorunması, ölkəmizin hərtərəfli inkişafı üçün tam gücümlə çalışacağam. Bu son günlər mənim ünvanıma soydaşlarımızdan çoxsaylı təbrik məktubları gəlir. Sadə insanlardan aldığım hər bir məktub, hər bir təbrik mənim üçün çox dəyərlidir. Fürsətdən istifadə edərək, səmimi ürək sözlərinə və dəstəklərə görə mən onların hər birinə dərin minnətdarlığımı bildirirəm. Bu gün parlamentdə təmsil olunan qadın həmkarlarımı və bütün Azərbaycan qadınlarını qarşıdan gələn 8 Mart - Ümumdünya Qadınlar Günü





münasibətilə təbrik edirəm. Mən sizin hər birinizə möhkəm cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram. Bu illərdə birgə fəaliyyətə görə sizə dərin minnətdarlığımı bildirirəm və ümidvaram ki, gələcəkdə bizim əməkdaşlığımız davam edəcək. Qoy Tanrı Azərbaycanı hər zaman qorusun! Diqqətinizə görə çox sağ olun.

***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın nitqindən sonra deputatlar çıxış etdilər. Milli Məclisin Sədr müavini Ziyafət Əsgərov xatırlatdı ki, 2016-cı ilin sentyabrın 26-da referendum keçirildi, Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklər edildi. Nəticədə Azərbaycanda vitse-prezidentlik institutu yaradıldı. Bu, idarəetmə mexanizmini təkmilləşdirəcək. Azərbaycan demokratik, dünyəvi dövlət olduğu kimi, eyni zamanda, sosial bir dövlətdir. Xanım Mehriban Əliyevanın özünün də dediyi kimi o, əsasən sosial problemlərin həlli ilə məşğul olacaq və Azərbaycanda sosial dövlətin daha da gücləndirilməsinə çox böyük töhfə verəcək.

Z.Əsgərov Mehriban Əliyevanın çox peşəkar siyasətçi, işgüzar, təcrübəli, prinsipial bir insan olduğunu vurğuladı. Onun sözlərinə görə, xanım Mehriban Əliyevanı xarakterizə edən insani keyfiyyətlərindən biri humanistliyi ilə bağlıdır. Amnistiya aktlarının verilməsi təkcə hüquq ilə bağlı olan məsələ deyil, on minlərlə insanın öz ailəsinə qovuşmasının, eyni zamanda, bütövlükdə dövlətin humanist xarakterinin göstəricisidir. Ümumiyyətlə, Azərbaycan dövləti mahiyyət etibarilə humanist dövlətdir. Cəza siyasətinin humanistləşdirilməsi isə dövlətimizin humanist xarakterinə uyğunlaşdırılmasını özündə ehtiva edir. Sözsüz ki, bu sahədə Mehriban xanımın töhfələri daha da çox olacaq".

Milli Məclisin Sədr müavini Bahar Muradova da Mehriban xanım Əliyevanı təbrik etdi. Qeyd etdi ki, Mehriban xanım bu gün Milli Məclisin qarşısında bir millət vəkili olaraq hesabatla çıxış etdi. Mən belə hesab edirəm ki, Birinci vitse-prezident səlahiyyətinə başlamamışdan əvvəl o, deputat kimi həm xalqa, həm dövlətə, həm də Milli Məclisə hesabatını verdi. Bu, çox gözəl bir ənənədir. Bura deputat kimi gəlmiş, bu binadan Birinci vitse-prezident kimi gedən Mehriban xanım tarixin, zamanın və dövlətimizin onun üzərinə qoyduğu bu missiyanı çox böyük ləyaqətlə, çox böyük nailiyyətlərlə həyata keçirəcək. Belə olacağına tam əminik.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə xanım Mehriban Əliyevanın Birinci vitse-prezident seçilməsini cəmiyyətin sosial sifarişi kimi qiymətləndirdi. Onun sözlərinə görə, bu təyinat eyni zamanda, Yaxın Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verən Azərbaycan dövlətinin müasir demokratiyasının təcəssümüdür: "Bu təyinat YAP üçün ikiqat sevinclidir. Çünki 2013-cü ildə Mehriban Əliyevanın hakim partiyanın sədr müavini seçilməsi YAP-ın fəaliyyətinə yeni impuls verib".

Deputatlardan Fəzail İbrahimli, Sahibə Qafarova, Azay Quliyev, Məlahət İbrahimqızı, Rauf Əliyev də çıxış edərək Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdilər.

Çıxışların sonunda Birinci vitse-prezident Mehriban Əliyeva ona göstərilən rəğbətə və etimada görə hər kəsə təşəkkür etdi.

# Azərbaycan və Səudiyyə birgə müəssisə yarada bilər

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulfood 2017" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması istiqamətində danışıqlar davam edir. İqtisadiyyat Nazirliyindən daxil olmuş məlumata görə, Azərbaycandan Səudiyyə Ərəbistanına ət və ət məhsullarının ixracı ilə bağlı danışıqlar aparılıb. Bu danışıqların nəticəsi olaraq, birgə müəssisənin yaradılması məsələləri də müzakirə olunub.

Bir neçə gün öncə xəbər verdiyimiz kimi, sərgi çərçivəsində Azərbaycanın "Azprotein" şirkəti (AzBanvit) ilə BƏƏ-nin "General Tradeing Company" şirkəti arasında Dubaya ət ixracına dair müqavilə imzalanıb.

Sərgini ziyarət edənlər "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunan meyvə və tərəvəz məhsullarına, çay və fındığa böyük maraq göstərir.

Artıq sərgi çərçivəsində Azərbaycan şirkəti İspaniyanın Valensiya şəhərinə 128 ton fındıq ixracı ilə bağlı sifariş alıb və bu sahədə danışıqlara başlanılıb.

Bununla yanaşı, Səudiyyə Ərəbistanından olan iş adamları ilə yerli şirkətlər arasında görüş keçirilib. Bundan başqa, iş adamları arasında keçirilmiş görüşlərdə Azərbaycandan Küveytə nar şirələrinin, Dubaya isə quru süd məhsullarının ixracı barədə razılıqlar əldə olunub.

# Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin istismara veriləcəyi vaxt açıqlanıb

Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Əhməd Arslan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində inşaat işlərinin nə zaman başa çatacağını açıqlayıb. "Anadolu" agentliyinin verdiyi xəbərə görə, inşaat işləri 2 ay sonra başa çatacaq. Onun sözlərinə görə, bundan sonra iki ay ərzində test yürüşləri həyata keçiriləcək. "İyun ayından artıq Bakı-Tbilisi-Qars dəmir yolunda dizel lokomotivləri işə salınacaq", - deyə nazir qeyd edib.




Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# "QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI DAHA DA BÖYÜK PRİORİTET OLMALIDIR"

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da davamlı inkişafına şərait yaratmışdır. Ölkə başçısı İlham Əliyev hər zaman qeyri-neft sektorunu ölkənin gələcək inkişafında prioritet sahə olaraq qeyd etmişdir: **"Əlbəttə ki, indiki şəraitdə qeyri-neft sektorunun inkişafı daha da böyük prioritet olmalıdır. Mən qeyri-neft sektorunun inkişafı haqqında artıq neçə ildir ki, həm deyirəm, həm də praktik addımlar atılır. Regionların inkişafı, regionlarda infrastrukturun, sosial infrastrukturun yaradılması, yolların, qaz xətlərinin, elektrik stansiyalarının, kənd yollarının tikintisi, müəssisələrin, iş yerlərinin yaradılması - bütün bunlar son illər Azərbaycan reallıqlarını əks etdirir. Əgər vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün biz ölkə daxilində olan tələbatı heç ödəyə də bilməzdik".** Qeyri-neft sektorunun inkişafında isə sahibkarlığın çox böyük rolu vardır. Məhz bunun nəticəsidir ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri də özəl sektorun hərtərəfli inkişafına şərait yaradılması, onun dəstəklənməsi, daha da genişlənməsi üçün əlverişli mühitin formalaşdırılması, bunlara nail olmaq üçün müxtəlif mexanizmlərin tətbiq edilməsidir.

Qeyri-neft sektorunun inkişafına təkan verən müəssisələrdən biri kimi "Bakı tekstil fabriki" MMC-nin adını qeyd etmək olar.

Fabrik 1939-cu ildən Bakı şəhərində fəaliyyət göstərir. Sovetlər Birliyinin yeni qurulduğu dövrdə bütün Qafqazda ilk toxuculuq fabriki olan «Bakı tekstil fabriki» MMC-nin yaradılmasında əsas məqsəd Sovet dövlətinin Azərbaycan Respublikasının zəngin sərvətlərindən sayılan pambığın istehsalı və onun məhsullarına olan tələbatı idi. Həmin dövrlərdə fabrik Sovet dövlətinin trikotaj məhsulları ilə çox yüksək səviyyədə təmin olunmasında mühüm rol oynamışdır. Sovetlər birliyinin dağılmasından sonra isə Bakı tekstil fabriki ciddi dəyişikliklər edərək, Sovet iqtisadiyyatı prinsipindən uzaqlaşmış və dünya standartları, qlobal bazar prinsipləri üzərində fəaliyyətini yenidən qurmuşdur. Lakin ulu öndər Heydər Əliyevin istər Sovetlər dönəmində, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə müəssisə özünün yüksək inkişaf nöqtəsinə çatmış, bu sahəyə daim dövlət tərəfindən qayğı göstərilmiş və bu proses indi də cənab prezident İlham Əliyev tərəfindən davam etməkdədir.

«Bakı tekstil fabriki» MMC 2011-ci ildə yenidənqurma işlərindən sonra yenidən öz fəaliyyətini davam etdirmişdir. Fabrikin ümumi sahəsi 7000 $m^2$-dir. Fəaliyyətə başladığı ilk gündən xüsusi dövlət sifarişlərinin istehsalına başlayan müəssisə həm müxtəlif təyinatlı xüsusi və mülki geyimlərin (trikotaj məhsulların) böyük həcmdə istehsalını həyata keçirmiş, həmçinin Sovet ordusunun və İttifaq sənayesinin müxtəlif sahələrinin quruculuğunda yaxından iştirak etmişdir. 1941-1945-ci illərdə - Böyük Vətən müharibəsi zamanı fabrik bütün istehsal sahələrini birləşdirərək, xüsusi rejimdə gecə-gündüz işləyərək, Qırmızı Ordunun bütün hissələri üçün müxtəlif təyinatlı və çeşidli (ilin fəsilləri üzrə) hərbi uniformaların, jaketlərin, baş örtüklərinin, alt geyimlərinin və s. hərbi geyimlərin istehsalında mühüm rol oynamışdır. Böyük Vətən müharibəsindən sonra fabrik fəaliyyətini davam etdirmiş, 1979-1989-cu illərdə yenidən xüsusi rejimə keçərək, Əfqanıstanda döyüşlər zamanı Sovet ordusunu hərbi forma və digər geyim əşyaları ilə təmin etmişdir. Sovetlər birliyinin dağılmasından sonra da fabrik fərqli ölkələrdən daxil olan sifarişlərə əsasən müxtəlif təyinatlı uniformaların istehsalını həyata



keçirməyə davam etmişdir.

19-cu əsrin ortalarından başlayaraq Bakı şəhəri neft-qaz və kimya məhsullarının istehsalı üzrə dünyanın ən böyük sənaye şəhərlərindən birinə çevrilmişdir. Bu isə istər Azərbaycanda, istərsə də İttifaqın digər regionlarında neft-qaz müəssisələrində xüsusi iş formalarına (yanğına dözümlü, nəmlik, soyuqluq, istilik keçirməyən və s.) böyük ehtiyac yaratmışdır. Fabrikin bu sahədə də böyük xidməti olmuş, İttifaq səviyyəsində iqtisadiyyatın bütün sahələri (neft-qaz, kimya, maşınqayırma, energetika, yüngül sənaye, səhiyyə, nəqliyyat, xidmət, rabitə, təhsil və s.) üçün xüsusi uniformaların istehsalını həyata keçirmişdir. Hazırda müəssisə ənənəyə sadiq qalaraq ən müasir dizaynda, keyfiyyət və təhlükəsizlik göstəricilərinə malik bütün növ uniformaların istehsalında mühüm rol oynayır. Müəssisənin istehsal profili əsasən aşağıdakı istiqamətləri əhatə edir:

- **korporativ geyimlər;**
- **ziyafət geyimləri;**
- **idman geyimləri;**
- **tibbi geyimlər;**
- **məktəbli geyimləri;**
- **xüsusi təyinatlı geyimlər;**
- **gündəlik geyimlər;**
- **promo geyimlər;**
- **uşaq geyimləri.**

Bakı tekstil fabrikində, həmçinin 43 çeşiddə, 125 modeldə geyim növləri istehsal edilir. İstehsal gücünün artırılması məqsədilə hər il müəssisədə yeni avadanlıqların alınıb çoxaldılmasına və mütəxəssislərin ixtisas artımına xüsusi diqqət ayrılır. İstehsal edilən malların xarici görünüşünü və keyfiyyətini yaxşılaşdırmaq, məhsulların xarici bazara çıxarılmasını təmin etmək məqsədilə müəssisə ən son texnologiya və avadanlıqlarla təchiz edilir. Bunun nəticəsidir ki, fabrikdə 2015-ci ildə 1900000 manatlıq, 2016-cı ildə isə 2 500 000 manatlıq müxtəlif növ geyim növləri istehsal olunmuşdur.

Artıq qeyd etdiyimiz kimi, Sovetlər birliyinin dağılmasından sonra «Bakı tekstil fabriki» MMC-də ciddi dəyişikliklər baş verdi. Bununla əlaqədar olaraq, müəssisənin maddi-texniki bazası da dəyişdirildi və Almaniyadan, İtaliyadan, Yaponiyadan, Türkiyədən gətirilən ən son texnologiyalar tətbiq edilməyə, fəaliyyət prosesinə Avropadan müasir təcrübəyə malik mütəxəssislər, ekspertlər cəlb olunmağa başlandı.

Hazırda müəssisədə yüksək keyfiyyətə və təhlükəsizlik göstəricilərinə malik xüsusi təyinatlı geyimlərlə (uniformalarla) yanaşı, dünya və Avropa standartlarına uyğun 5000-dən çox çeşiddə müxtəlif trikotaj məhsulları istehsal olunur, eyni zamanda, müxtəlif təyinatlı dövlət və şirkət şifarişləri həyata keçirilir. Müəssisənin kollektivi trikotaj istehsalı üzrə bir çox qabaqcıl ölkələrdə təşkil olunan treninqlərdə və kvalifikasiya mərkəzlərində daima iştirak edir, yeni təkliflər və real praktika bazası yaradırlar.

Bakı tekstil fabrikində istehsal sahələri təyinatları üzrə əsasən aşağıdakı sahələrdən ibarətdir:

1. **Toxuculuq fabriki.** Toxuculuq fabriki 3 əsas sexdən, hər sex isə öz növbəsində yardımçı sahələrdən ibarətdir. Birinci sexdə fabrikada trikotaj məhsullarının istehsalı üçün lazım olan müxtəlif çeşidli parçaların toxunulması, ikinci sexdə corabların istehsalı (toxunulması) həyata keçirilir. Üçüncü sexdə isə müxtəlif çeşidli üst trikotaj məhsullarının və yarımməhsulların toxunulması (cemperlər, jaketlər, sviterlər, baş örtükləri və s.) prosesi həyata keçirilir.

2. **Tikiş fabriki.** Tikiş fabriki də təyinatı üzrə bir neçə bölmədən ibarətdir:

- **sifarişlərin qəbulu bölməsi;**
- **dizayn işləri bölməsi;**
- **eksperimental sahə;**
- **kəsim sexi;**
- **uniformaların tikilişi sexi;**
- **qadın, kişi və uşaq üçün alt və üst trikotaj məhsullarının tikilişi sexi;**
- **xüsusi sifarişlər sexi (məs. restoran və kafelər üçün tekstil və s. kimi eksklüziv şifarişlər);**
- **trikotaj məhsullarının üzərinə basqı sexi.**

3. **Trikotaj məhsullarının rənglənməsi və qurudulması sexi.** Bu sexdə toxuculuq və tikiş fabrikində istifadə olunan xammalların, eyni zamanda, hazır məhsulların rənglənməsi və qurudulması prosesləri həyata keçirilir.

Fabrikdə keyfiyyət və təhlükəsizlik göstəricilərini daima nəzarətdə saxlamaq üçün müasir avadanlıq və cihazlarla təmin olunmuş xüsusi laboratoriya da fəaliyyət göstərməkdədir.

Bakı tekstil fabriki, həmçinin Azərbaycanda məktəbli geyimlərinin lisenziya ilə hazırlanmasını həyata keçirən iki müəssisədən biridir. Xüsusilə, Azərbaycanın rütubətli bir ölkə olduğunu nəzərə alaraq, qeyd etmək lazımdır ki, məktəbli formalarının hazırlanması daha çox diqqət tələb edir. Məktəbli formaları özünəməxsus görünüşə malik olmaqla bərabər, 60% pambıq, 40% akrilik qarışıq olan liflərdən hazırlanmalıdır. Məktəbyaşlı uşaqlar daha çox hərəkətdə olduqlarından bu amil xüsusilə nəzərə alınmalıdır ki, Bakı tekstil fabriki də bu məsələni öz fəaliyyətində daim diqqətdə saxlayır. Fabrik Azərbaycan Respublikasının bir çox bölgələrində məktəbli formalarının satışını həyata keçirir.

Azərbaycan Avropa və Asiyanın mərkəzində yerləşdiyindən istər məktəbli geyimlərinin, istərsə də digər növ geyimlərin hazırlanmasında daha müasir, daha cəlbedici rənglərə üstünlük verilir. Məhz belə fərqli və rahat geyim dəstlərinin ərsəyə gəlməsi üçün müəssisədə təcrübəli və yaradıcı modelyer-dizaynerlərin əməyindən də istifadə olunur.

Ümumiyyətlə, "Bakı tekstil fabriki" MMC-də bütün növ məhsulların keyfiyyət parametrlərinə çöx böyük önəm verilir. Çünki keyfiyyət əməyin təhlükəsizliyinə təsir edən edən əsas amillərdən biri olaraq qiymətləndirilir. Məhz buna görə də müəssisədə yüksək keyfiyyətli, yüngül və ağır sənaye şirkətləri, inşaat və kənd təsərrüfatı təşkilatları, mağazalar üçün lazımi standartlar nəzərə alınaraq məhsullar hazırlanır. Bir qayda olaraq, ovçu və balıqçı, aşbaz, sürücü, keşikçi, ev qulluqçuları, xadimələr, avtoservis işçiləri, dəmiryol işçiləri, yeyinti, sənaye, FHN, tibb işçiləri və s. kimi müxtəlif fəaliyyət növlərində formalar mövsümi, qış və yay iş paltarlarına bölünür ki, fabrikdə bu cür məhsulların da hazırlanması təmin olunur. Fərdi alıcılar üçün iş paltarı və uniformanın sifarişə əsasən tikişi üçün xüsusi sex də fəaliyyət gösterir. Həmin sexdə firmalar qısa müddət ərzində növbəti partiyanın təsdiqlənməsi və hazırlanması üçün təcrübəli nümunələr hazırlaya bilərlər.

**Mətanət Hüseynova**

# MÜTƏRƏQQİ İSLAHATLAR KURSU YENİ KEYFİYYƏT MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUR

***Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyinatı sosial-iqtisadi inkişafın davamlılığına və humanizm ideyalarının daha geniş yayılmasına yeni dinamizm verəcək.***

Hər bir ölkənin dinamik inkişafını təmin edən amillərdən biri də dövrün tələblərinə cavab verən kadr potensialının formalaşdırılması və səmərəli mexanizmlər üzərində çevik dövlət idarəçiliyi sisteminin yaradılmasıdır. Tarixən xalqla hakimiyyətin möhkəm mənəvi birliyi də məhz hər bir vətəndaşın mənafeyinin uca tutulduğu cəmiyyətlərdə mümkün olmuşdur. Təcrübə göstərir ki, ictimai maraqların ifadəçisi olan hakimiyyət fəaliyyətində daim mütərəqqi ruhlu qanunlara əsaslanaraq xalqa təmənnasız xidməti başlıca məqsədə çevirir.

Bu məqsədin reallaşdırılması üçün monolit, güclü, peşəkar komandanın formalaşdırılması, habelə dövlət idarəçiliyinə müasirlik, dinamizm və təşəbbüskarlığın gətirilməsi obyektiv zərurətə çevrilir. Qlobal maliyyə böhranı şəraitində bu və digər mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması Azərbaycan üçün də kifayət qədər aktualdır. Yeni dünya nizamının reallıqlarını obyektiv dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyevin son iki ildə yürütdüyü məqsədyönlü siyasət bu mənada təkcə qlobal iqtisadi böhranın ölkəmizə mənfi təsirlərinin maksimum dərəcədə azaldılmasına deyil, həm də dövlət idarəçiliyində sistem xarakterli keyfiyyət dəyişikliklərinin təmin edilməsinə yönəlmişdir. Ölkədə və regionda ümumilikdə qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından, dövlət başçısı rəhbərlik etdiyi komandanın bu çağırışlara hazır olmasını vacib sayır. Cənab İlham Əliyevin təşəbbüsü və xalqımızın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi də bu mənada postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir.

Makroiqtisadi sabitliyin qorunub saxlanılması məqsədilə böhrana qarşı səmərəli tədbirlər sistemi müəyyənləşdirən və qeyri-neft sektoruna əsaslanan ixracyönümlü inkişaf modelinin formalaşdırılması yönümündə ardıcıl islahatlar həyata keçirən dövlət başçısı keyfiyyətcə yeni mərhələdə hakimiyyət komandası qarşısında aydın hədəflər müəyyənləşdirmişdir. Bu da təsadüfi deyildir - dövlət məmurlarının etik-mənəvi davranışları təkcə dövlət idarəçiliyinin mahiyyətinə deyil, ümumilikdə cəmiyyətdəki mənəvi ab-havaya, ictimai münasibətlər sisteminin xarakterinə təsirini göstərir. Dövlət və xalq təəssübkeşliyi olmayan dövlət məmurunun şəxsi maraqlara köklənən fəaliyyəti bəzən idarəçilikdə sağlam harmoniyanı pozaraq sosial ədalət prinsipinin, humanist dəyərlərin və milli-mənəvi dəyərlərin aşınmasına, ictimai münasibətlərdə problemlərin yaranmasına gətirib çıxarır.

Dövlət başçısı İlham Əliyev 2017-ci il yanvarın 30-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ildönümü ilə bağlı keçirilən konfransda haqlı olaraq demişdir: "Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm, bu gün də deyirəm, bunu hər kəs bilsin, eşitsin və nəticə çıxarsın. Məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur bax belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək".

Müasir dövrdə hər bir dövlətin tərəqqisi "insan meyarı", yəni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Bu mənada əminliklə demək olar ki, Azərbaycan cəmiyyəti tarixin heç bir mərhələsində son illərdəki kimi sürətli dəyişikliklərə uğramamış, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmamışdır. Belə məsuliyyətli mərhələdə dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək, xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilmişdir. Bir sözlə, son illər həyata keçirilən islahatlar paketinin əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə idarəçilik fəlsəfəsinin dəyişdirilməsi və müasirləşdirilməsi təşkil edir.

İqtisadçı alim olaraq hesab edirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi də ölkədəki sistem xarakterli islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini özündə əks etdirən tarixi qərardır. Cəmiyyətdə mütləq çoxluğun ilkin qənaəti də məhz bundan ibarətdir ki, Heydər Əliyev Fondunun prezidenti kimi son 13 ildə vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış, yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva üzərinə götürdüyü yeni məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını doğruldacaqdır.

Rusiyanın nüfuzlu "Rossiya-1" telekanalına müsahibəsində Mehriban xanım Əliyeva yeni vəzifəsində də insanlara layiqli xidmət prinsipini rəhbər tutacağını, xalqın və ölkə Prezidentinin etimadını doğrultmağa çalışacağını bir daha bəyan etmişdir: "Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm. Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır - istər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır".

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllinə diqqət göstərməsi - martın 1-də Sabunçu və Xəzər rayonlarında fiziki imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuş internat məktəblərdə yaradılmış şəraitlə tanış olması deyilənləri bir daha təsdiqləyir. İndiyə qədər cəmiyyəti narahat edən məsələlərin həlli naminə əzmkarlıqla çalışan, səmərəli təşəbbüslərin müəllifi kimi çıxış edən Azərbaycanın birinci xanımının dövlət idarəçiliyində də ilkin addımları cəmiyyətin sosial-mənəvi tərəqqisinə xidmət edən islahatlara yeni nəfəs verəcəyini əminliklə söyləməyə əsaslar verir. Bu təyinatın cəmiyyətdə birmənalı olaraq dəstəklənməsi və rəğbətlə qarşılanması həm də onunla şərtlənir ki, Mehriban xanım Əliyeva istər ictimai, istərsə də parlamentarizm fəaliyyəti ilə insan amilini daim önə çəkmiş, cəmiyyətin mövcud resurslarının bu yöndə səfərbər olunmasına çalışmışdır.



Azərbaycan xalqının milli təfəkküründə xeyirxahlıq, mərhəmət, humanizm, nəciblik kimi dəyərlər daim xüsusi yer tutmuşdur. Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, xeyriyyəçilik aksiyalarının həyata keçirilməsi, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu aktuallıq ilk növbədə onunla şərtlənir ki, elmi-texniki inqilabın məhsulu olan müasir informasiya-kommunikasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, bəzi hallarda insanlar arasında mənəvi uçurumu, psixoloji səddi dərinləşdirir, mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək, ictimai düşüncədə humanizm və mərhəmət kimi ali keyfiyyətlərin möhkəmlənməsinə nail olmaq missiyası isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Ümumi şəkildə deyilsə, fondun başlıca məqsədləri həm də xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək; elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq; milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq; respublikanın beynəlxalq nüfuzunu daha da artırmaq; milli həqiqətləri dünyaya çatdırmaq kimi strateji əhəmiyyətli vəzifələrdən ibarətdir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardımçı olmaq qurumun məqsədləri sırasında mühüm yerlərdən birini tutur.

"Rossiya-24" telekanalına müsahibəsində Azərbaycanın birinci xanımı rəhbəri olduğu fondun insanların müraciətlərinə xüsusi həssaslıqla yanaşdığını demişdir: "Biz bu və ya digər problemin həllinə kömək göstərmək barədə xeyli sayda məktublar alırıq. Sizə deməliyəm ki, biz fondun fəaliyyətinin bu sahəsini qabartmırıq və təbliğ etmirik. Çünki bəzən şəxsi xahişlər, bəzən də insanların səhhətindəki problemlərlə bağlı çoxlu müraciətlər olur. Biz azacıq imkan olan yerdə kömək etməyə çalışırıq. Bilirsiniz həm də ən vacibi nədir? Ən vacibi əlaqədir. İnsan məktublar göndərir. Bilmirəm, yəqin təbii ki, administrasiyada da bu məktublar nəzərdən keçirilir. Bu məktubların haraya və necə daxil olması ilə bağlı hansısa xüsusi mexanizm var. Bizdə bu mexanizm minimuma endirilib. Əgər insan məktub yazırsa, elə ertəsi günü, yaxud hansısa qısa müddətdən sonra onunla əlaqə saxlamağa və öyrənməyə çalışırıq. Çünki biz öyrənməliyik. Bəzən elə olur ki, məktubda yazılanlar həqiqətə uyğun gəlmir. Əgər həqiqətən köməyin lazım olduğunu görürüksə, çalışırıq kömək edək. Hesab edirəm ki, Heydər Əliyev Fondu məhz bunun sayəsində insanların sevgi və hörmətini qazanıb".

Cəmiyyətdə könüllü sosial müdafiə, xeyriyyəçilik, sosial tərəfdaşlıq, korporativ sosial məsuliyyət və s. prinsiplərin möhkəmlənməsinə çalışan Heydər Əliyev Fondu ötən 13 ildə bu məqsədlərə xidmət edən strateji əhəmiyyətli layihələri inamla həyata keçirmişdir. UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri haqlı olaraq qeyd edir ki, xeyriyyəçilik cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Çətin məqamda başqalarından dəstək almış insan imkanı daxilində başqalarına kömək göstərməyə daha çox meyil edir. Beləliklə, cəmiyyətdə xeyirxah işlərin dairəsi genişlənir, qarşılıqlı kömək və dəstək sistemi yaranır. Bütün bunlar isə son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr ölkə hüdudları ilə məhdudlaşmayıb ümumbəşəri mahiyyəti ilə də diqqəti cəlb edir. Xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki əzmkar fəaliyyət bəşəri miqyasda rəğbətlə qarşılanır. Son illər UNESCO, ISESCO, UNİSEF və digər beynəlxalq qurumlarla birgə keçirilən tədbirlər Azərbaycanın qlobal sferada sülh, tərəqqi və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanındığını, nüfuzunun yüksəldiyini göstərir.

Bu da təsadüfi deyildir ki, Mehriban xanım Əliyeva 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" laureatına, 2010-cu ildə isə Fransanın "Fəxri Legion" ordeninə, UNESCO-nun "Qızıl Motsart" medalına, 2011-ci ildə Krans Montana Forumunun Qızıl medalına və digər nüfuzlu mükafatlara layiq görülmüşdür. Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla Azərbaycanın birinci xanımının 2009-cu ildə "Heydər Əliyev mükafatı"na, 2015-ci ildə "Heydər Əliyev ordeni"nə layiq görülməsi də onun dövlət və xalq naminə fəaliyyətinin yüksək dəyərləndirildiyini göstərir.

Ötən 13 illik fəaliyyəti ilə Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaratmış dövlət başçısı cənab İlham Əliyev elm və təhsilin problemlərini də xüsusi diqqət mərkəzində saxlamış, ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etmişdir. Bu da təsadüfi deyildir - ölkə iqtisadiyyatının gələcəkdə davamlı və tarazlı inkişafının təmin edilməsi üçün daxili resurslarla yanaşı, güclü insan kapitalının da formalaşdırılması mühüm şərtdir. Bütün bunlar isə dövlət idarəetməsi üçün müasir təfəkkürlü, kreativ gənc kadrların hazırlanmasını obyektiv zərurətə çevirir.

Fəal maarifçilik xətti yeritməklə klassiklərin mütərəqqi ənənələrini davam etdirən Heydər Əliyev Fondunun 13 illik fəaliyyəti bu baxımdan elmə və təhsilə qayğı nümunələri ilə zəngindir. Fondun təhsil sahəsində gördüyü işlər sırasında respublikamızın müxtəlif bölgələrində reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna əhəmiyyət daşımışdır. Proqram təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə - tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənmişdir. İctimai dəstəyi vacib hesab edən Heydər Əliyev Fondu cəmiyyətin müxtəlif təbəqələrinin diqqətini bu məsələyə yönəltmək məqsədilə 2005-ci ilin iyununda müvafiq qurumların, habelə beynəlxalq təşkilatların iştirakı ilə "dəyirmi masa" təşkil etmiş, proqramın həyata keçirilməsi məqsədi üçün 100, 200 və 240 şagird yerlik məktəb layihələri hazırlanmışdır. Layihənin həyata keçirilməsi ilə bağlı fondun prezidentinin cəmiyyətə ünvanladığı əməkdaşlıq çağırışı geniş əks-səda doğurmuş, az sonra Azərbaycanın müxtəlif bölgələrində - hətta ucqar dağ kəndlərində belə, məktəb binasının tikintisi geniş vüsət almışdır. Əslində, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin ən üstün cəhətləri onun paytaxtla yanaşı, regionlarda da icra edilməsi olmuşdur. İnanılmaz görünsə də, layihənin icrası nəticəsində yalnız ilk 4 ayda ölkədə 132 yeni məktəb tikilərək istismara verilmişdir.

2006-cı ildə Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinə başlamış, Bakıətrafı qəsəbələrdə yeni məktəblər inşa olunmuşdur. Bununla da, fond ictimaiyyətin diqqətini növbəti dəfə müasir dünyada hər bir ölkənin inkişafının, onun dünya birliyinə inteqrasiyasının əsasında yalnız mükəmməl təhsilin dayandığına yönəltmişdir. Ümumilikdə, fondun başladığı layihə çərçivəsində son 13 ildə 3000-ə yaxın məktəb əsaslı təmir edirmiş və yenidən qurulmuşdur.

Fondun "Təhsilə dəstək" layihəsi də özünün humanist mahiyyəti ilə diqqəti çəkir. Heydər Əliyev Fondu hər il layihə çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanda yaşayan azərbaycanlı birinci sinif şagirdlərinə, Qax, Zaqatala, Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə hər il yeni dərslik və tədris ləvazimatları göndərilir.

"Təhsilə dəstək" layihəsi bir sıra xarici ölkələrdə də uğurla həyata keçirilir. Fond Pakistanda, Hollandiyada, Gürcüstanda, Misirdə, Rumıniyada,



Rusiyada yeni məktəblər tikdirmiş və təmir etdirmişdir. Layihə çərçivəsində Pakistanda qızlar üçün yeni orta məktəb binasının inşası bu baxımdan xüsusi vurğulanmalıdır. Xatırlatmaq lazımdır ki, 2005-ci ildə Pakistanda böyük dağıntılara səbəb olmuş zəlzələdən sonra Müzəffərabad şəhərinin Rara ərazisindəki qızlar məktəbi tam yararsız vəziyyətə düşmüşdü. Fondun xəttilə qısa müddətdə inşa edilən 650 şagird yerlik təhsil ocağında müasir tələblərə cavab verən 10 xüsusi sinif otağı, laboratoriyalar, fənn kabinetləri, kompüter otağı, idman meydançası var.

“Təhsilə dəstək” layihəsi çərçivəsində Gürcüstanın Dmanisi rayonunda da yeni elmi-tədris mərkəzinin binası inşa edilərək istifadəyə verilmişdir. Bundan əlavə, bir sıra xarici təşkilat və şirkətlərin fonda hədiyyə etdikləri müxtəlif adda 10 mindən çox kitab ölkənin ali və ümumtəhsil məktəblərinə, uşaq evlərinə, internat məktəblərinə paylanılmışdır.

Layihə çərçivəsində Rusiyanın Ulyanovsk şəhərində bərbad vəziyyətdə olan məktəb binasının ən müasir tələblər səviyyəsində təmir olunması da fondun təhsil layihələrinin Azərbaycan hüdudları ilə məhdudlaşmadığını, beynəlxalq miqyaslı olduğunu göstərir. Həmin məktəbin 2010-cu il sentyabrın 1-də istifadəyə verilməsi Rusiya ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Heydər Əliyev Fondunun bu sahədə başlıca fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllində nüfuzlu beynəlxalq təşkilatlardan sayılan UNESCO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanmaqdır. Bu nüfuzlu beynəlxalq təşkilatın diqqətinin ölkənin təhsil problemlərinin həllinə cəlb olunması, təşkilatla əməkdaşlıq şəraitində keçirilən birgə tədbirlər mövcud əlaqələrin daha da intensivləşməsinə yaxşı imkanlar açmışdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Milli Məclisin fəal deputatı kimi ötən illərdə seçiciləri qarşısında verdiyi hər bir vədi əməli işi ilə doğrultmuşdur. Azərbaycanın birinci xanımı qısa müddətdə deputatı olduğu Xəzər rayonunda böyük layihələrin həyata keçirilməsinə nail olmuş, onun təşəbbüsü ilə yaradılan “Xəzər rayonunun İnkişaf Fondu” əməli fəaliyyətə başlamışdır. Fondun məqsədi rayonun potensialından səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafı, əhalinin məşğulluğunun artırılması, gənclərin ictimai fəaliyyətə cəlb edilməsi, rayonda investisiya qoyuluşunun sürətləndirilməsi, mövcud turizm resurslarından daha səmərəli istifadə edilməsi, tarix və mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində layihələrin həyata keçirilməsidir.

2004-2016-cı illərdə fondun yaxından köməyi ilə Bakının Zirə, Binə, Türkan, Qala və digər qəsəbələrinə yollar çəkilmiş, habelə onların su təchizatı yaxşılaşdırılmış, abadlıq-quruculuq işləri həyata keçirilmişdir. Fondun maliyyə vəsaiti hesabına, həmçinin dini və tarixi-mədəniyyət abidələrinin ətraf ərazisi abadlaşdırılmış, insanların asudə vaxtlarını səmərəli keçirməsi üçün parklarda lazımi şərait yaradılmışdır.

Regional inkişafa xidmət edən sosial layihələr sırasında Qaradağ rayonunun Lökbatan qəsəbəsində 20 min sakinin su təminatının yaxşılaşdırılmasına imkan verən su kəmərinin çəkilişini, Şamaxı rayonunda məcburi köçkün ailələri üçün yaşayış binalarının inşasını, zəruri əşya və avadanlıqla təmin edilməsini xüsusi qeyd etmək lazımdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ötən illərdə 4 dəfə amnistiya təşəbbüsü ilə çıxış etməsi də yüksək insani dəyərlərin, mərhəmət hissinin cəmiyyətə aşılanmasına, ictimai şüura hakim kəsilməsinə yönəlmişdir. Amnistiya aktlarının qəbulu ilə bağlı ölkədə formalaşmış müsbət ənənənin Heydər Əliyev Fondu tərəfindən geniş miqyasda davam etdirilməsi Azərbaycanda humanist dəyərlərin ictimai şüurda möhkəmlənməsinə xidmət edir.

Heydər Əliyev Fondunun millətin fiziki və mənəvi sağlamlığı, milli-genetik ruhunun qorunması naminə həyata keçirdiyi sosialyönümlü layihələr sırasında səhiyyəyə yardım, bu sahənin infrastrukturunun yeniləşdirilməsi, vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi də mühüm yer tutur. İxtisas etibarilə tibb elminin incəliklərinə dərindən bələd olan Mehriban xanım Əliyeva Azərbaycan səhiyyəsində mövcud problemləri daha yaxşı görməklə, ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, ələlxüsus, tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqətlə, həssaslıqla yanaşmağa çalışmışdır. Fondun “Diabetli uşaqlara ən yüksək qayğı” və “Talassemiyasız həyat naminə” layihələri cəmiyyətdə daha böyük rəğbətlə qarşılanmış, bu xəstəliklərdən əziyyət çəkən insanların, ələlxüsus da körpələrin və uşaqların şəfa tapmasına, pulsuz müayinə, müalicə almasına imkan yaratmışdır. Azərbaycanın birinci xanımının dəstəyi ilə ölkədə bir sıra yeni tibb müəssisələri, o cümlədən Talassemiya Mərkəzi inşa olunaraq insanların istifadəsinə verilmişdir.

Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli də bu gün Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qarşıya qoyduğu əsas vəzifələrdən biridir. “Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” bilavasitə fondun prezidentinin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evi və internat məktəblərdə mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür.

Beynəlxalq miqyasda fəaliyyət göstərən, Rusiya, ABŞ, Türkiyə, Rumıniya və digər ölkələrdə filialları olan fond müxtəlif ölkələrdə təbii fəlakətlərdən ziyan çəkən insanlara da yardım edir. Pakistanda zəlzələdən ziyan çəkən insanlara humanitar yardımın göstərilməsi bu missiyanın Azərbaycan hüdudları ilə məhdudlaşmadığını göstərir.

UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi fərqli mədəniyyətləri bir araya gətirmək missiyasını üzərinə götürmüş Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyəti hələ 1990-cı illərin ortalarından başlayır. O, hələ 1995-ci ildən “Azərbaycan Mədəniyyətinin Dostları” Xeyriyyə Fondunun rəhbəri kimi ağır böhranla üzləşmiş milli mədəniyyətimizə böyük qayğı və diqqət göstərmişdir. Həmin vaxtdan musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi işi bu fondun daim diqqət mərkəzində olmuş, ardıcıl şəkildə təşkil edilən xeyriyyə konsertləri mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə töhfə vermişdir.

Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında UNESCO-nun xoşməramlı səfiri seçilməsi ilə fondun milli irsin mühafizəsi sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir. Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi, habelə “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun “Dünya irs siyahısı”na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi bu fəaliyyətin təqdirəlayiq məqamları kimi vurğulana bilər. Fondun prezidentinin şəxsi səyləri nəticəsində Azərbaycan xalqının milli sərvəti sayılan muğam, Novruz bayramı, kəlağayı UNESCO-nun qeyri-maddi irs siyahısına daxil edilmişdir. Mehriban xanım Əliyevanın Azərbaycan muğamların öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti də onun mənəvi dəyərlərə bağlılığının və yüksək vətənpərvərliyinin bariz göstəricisidir.

Fond müxtəlif ölkələrdəki unikal mədəniyyət abidələrinin bərpası prosesində də yaxından iştirak edir. Fondun təşəbbüsü ilə Fransada Dünya Mədəni İrs siyahısına daxil edilmiş Versal sarayı, Parisdə XIV əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələri, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayı, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan orta əsrlər əlyazmaları bərpa olunmuşdur. Heydər Əliyev Fondu Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə də dəstək vermişdir.

Nəhayət, 2012-ci ildə “Eurovision” mahnı yarışmasının, 2015-ci ildə I Avropa Oyunlarının, 2016-cı ildə “Formula-1” yarışlarının Bakıda yüksək səviyyədə keçirilməsində Heydər Əliyev Fondunun prezidentinin xidmətləri danılmazdır. Hazırda İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə rəhbərlik edən Azərbaycanın Birinci vitse-prezidentinin yüksək təşkilatçılığı sayəsində respublikamızın bu məsuliyyətli tədbiri də uğurla keçirəcəyinə, milli mədəniyyətin zənginliyini və özünəməxsusluğunu müsəlman dünyasında layiqincə nümayiş etdirəcəyinə qətiyyən şübhə yoxdur.

Bir sözlə, Mehriban xanım Əliyevanın həyata keçirdiyi müxtəlif layihələr, tədbirlər insanlara səmimi yaxşılıq kimi yüksək bir amalın cəmiyyətə təlqin olunmasına və reallaşdırılmasına yönəlmişdir. Şübhə yoxdur ki, Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti statusunda da nəcib fəaliyyətini inamla davam etdirəcək, ulu öndər Heydər Əliyevin ölməz ideyalarına, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrik qərarlarına söykənərək milli intibah prosesinə layiqli töhfələrini verəcəkdir.

**Qüdrət KƏRİMOV,**
**“Xəzər” ASC-nin sədri, iqtisad elmləri doktoru**

# Azərbaycanda ən çox alınan qiymətli kağız: SOCAR istiqrazları



Azərbaycanın qiymətli kağızlar bazarında ən çox alınıb-satılan investisiya aləti məlum olub. Bu, Dövlət Neft Şirkətinin (SOCAR) daxili bazar üçün buraxdığı SOCAR istiqrazlarıdır.

Azərbaycanın istiqraz bazarında aparılan əməliyyatların 76%-dən çoxu SOCAR İstiqrazlarının payına düşür. Bu barədə SOCAR istiqrazlarının təkrar bazarı üzrə market-meyker olan «PSG Kapital» investisiya şirkətindən məlumat verilib.

2017-ci ilin ilk iki ayı ərzində Azərbaycanın qiymətli kağızlar bazarında istiqrazlarla 38,6 milyon dollarlıq və ya 69,7 milyon manatlıq əməliyyat həyata keçirilib. Bura Maliyyə Nazirliyinin buraxdığı dövlət istiqrazları, korporativ istiqrazlar və Dövlət Neft Şirkətinin daxili bazar üçün buraxdığı SOCAR istiqrazları aiddir.

İlk iki ayın nəticələri göstərir ki, istiqraz bazarında əməliyyatların böyük hissəsi SOCAR istiqrazlarının payına düşür. Belə ki, yanvar-fevral aylarında birjada 29,4 milyon dollarlıq istiqraz alınıb satılıb ki, bu da ümumi istiqraz bazarının 76,2%-i deməkdir. Digər korporativ istiqrazlarla aparılan əməliyyatlar 7,4 milyon dollar, dövlət istiqrazları ilə aparılan əməliyyatların həcmi isə 1,7 milyon dollar təşkil edib.

Ümumiyyətlə, SOCAR istiqrazlarının təkrar bazara buraxılmasından keçən müddətdə bu kağızlar bazarda ən aktiv alınıb-satılan investisiya alətinə çevrilib.

Xatırladaq ki, SOCAR istiqrazları 2016-cı ilin sentyabr-oktyabrında dövriyyəyə buraxılıb. Ötən il oktyabrın 17-dən isə SOCAR istiqrazlarının təkrar bazarda dövriyyəsinə başlanıb. Həmin vaxtdan fevralın sonunadək Bakı Fond Birjasında istiqrazlarla 89,2 milyon dollarlıq əməliyyat aparılıb. Bu əməliyyatların təqribən 3 milyon dolları Maliyyə Nazirliyinin buraxdığı dövlət istiqrazlarının, 23,1 milyn dolları korporativ istiqrazların, 69,1 milyon dolları və ya 70,7%-i SOCAR istiqrazlarının payına düşüb.

SOCAR istiqrazlarında isə təkrar bazar olduqca aktivdir, indiyədək buraxılmış 100 milyon dollarlıq istiqrazlar üzrə 69 milyon dollarlıq əməliyyat aparılıb. Bu isə o deməkdir ki, hər 10 istiqrazdan 7-si təkrar bazarda yenidən alınıb satılıb. SOCAR istiqrazları hüquqi şəxslərlə yanaşı, fiziki şəxslər və adi vətəndaşlar arasında da ən populyar qiymətli kağıza çevrilib.

Hazırda birjada SOCAR istiqrazlarını 1007 dollara almaq, 1001 dollara satmaq mümkündür.

# PAŞA Bank Amerika-Azərbaycan ticarət palatasının illik yığıncağında iştirak edib

Azərbaycanın aparıcı korporativ bankı – PAŞA Bank Amerika-Azərbaycan ticarət palatasının Vaşinqtonda keçirilən illik yığıncağında iştirak edib. Bu il tədbirdə 30 müxtəlif təşkilatdan, o cümlədən diplomatik missiyalardan, biznes-assosiasiyalardan, iri banklardan, investisiya birliklərindən və digər işgüzar dairələrdən 250-dən artıq nümayəndə iştirak edib.

Konfrans zamanı hər iki ölkənin mütəxəssisləri enerji daşıyıcılarının qiymətinin aşağı düşməsi fonunda dünya iqtisadiyyatında baş verən dəyişiklikləri, həmin proseslərin Azərbaycan və ABŞ-ın iqtisadiyyatına təsirini və ölkələr arasında ticarət münasibətlərinin gələcək inkişaf perspektivlərini müzakirə ediblər. Tədbirin mövzusuna habelə ölkəmizdə aparılan iqtisadi islahatlara və biznesin aparılması üçün yeni imkanlara, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsinə, dövlət-özəl tərəfdaşlığının gələcək inkişafına və s. aid məsələlər daxil edilmişdir.

“Banklar və maliyyə” adlı xüsusi sessiyada spiker qismində çıxış edən PAŞA Bankın İdarə Heyətinin sədri Taleh Kazımovun qeyd etdiyi kimi, enerji daşıyıcılarının qiymətinin aşağı düşməsi iqtisadiyyatın şaxələndirilməsini daha da aktual etdi ki, biz bank olaraq fəaliyyətimizin ilk günündən buna hazır idik.

PAŞA Bankın sədri öz çıxışını bu sözlərlə yekunlaşdırıb: “Əlbəttə, dünya energetika bazarındakı sarsıntılardan irəli gələn böhran ölkələr üçün hiss olunacaq iqtisadi çətinliklər törədir, lakin eyni zamanda, inkişaf üçün də yeni imkanlar açır. Belə ki, Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatının, nəqliyyat və logistikanın, İKT-nin, turizm sənayesinin əsas istiqamətlərinin inkişafına aid struktur islahatlar tam gücü ilə həyata keçirilir. Qeyd olunan sektorlar üzrə işlənib hazırlanmış yol xəritələri ölkədə ixracyönümlü istehsalatın inkişafı və xarici investisiyaların, o cümlədən ABŞ-dan investisiyaların cəlb edilməsi üçün böyük imkanlar yaradır”.

# Azərbaycanda Maliyyə Savadlığı Şurası yaradılır

Azərbaycan Banklar Assosiasiyası (ABA) bütün üzv təşkilatlara Maliyyə Savadlığı Şurasının yaradılması təklifi ilə müraciət edib. Şuraya üzv olmaq istəyən banklar bununla bağlı onlara ünvanlanan məktuba martın 10-dək cavab verməlidir.

"ABA maliyyə savadlığı ilə bağlı fəaliyyətini əsasən törəmə qurumu olan Azərbaycan Bank Tədris Mərkəzi (ABTM) vasitəsilə həyata keçirir. Maliyyə savadlığı ilə əlaqədar planlaşdırılan işlərin birgə müzakirəsi və koordinasiyası məqsədilə ABA-nın nəzdində üzv təşkilatların rəhbərliyindən ibarət (İdarə Heyəti üzvləri və s.) Maliyyə Savadlığı Şurasının yaradılması nəzərdə tutulur", - deyə məktubda qeyd olunub. Şuranın fəaliyyətinin əsas istiqamətləri üzvlərlə birlikdə ABTM-in direktoru Cavanşir Abdullayevin iştirakı ilə müəyyən ediləcək. Şura bu sahədə ideyaların, məlumatların və təcrübələrin müzakirə olunduğu platforma rolunda çıxış edəcək.

# Vergi xidməti – yeni çağırışlar, islahatlar, dəyişikliklər və transformasiya yolunda



Azərbaycan Respublikasının vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov

**Vergi ödəyiciləri yönümlü administrasiyaya keçid**

Vergi sistemində aparılan islahatların məntiqi davamı administrasiyanın təkmilləşdirilməsini və təşkilati strukturunun transformasiyasını labüdləşdirir.

Vergilər Nazirliyi buna qədər də daim canlı və dinamik qurum kimi fəaliyyət göstərib, öz inzibati resurslarını və sistemdaxili strukturunu iqtisadiyyatın dəyişən tələblərinə uyğun qurub, zərurət yarandıqca vergi inzibatçılığında və idarəetmə sistemində islahatlar aparıb. Bununla belə, milli vergi administrasiyasındakı son dəyişikliklər istər mahiyyət, istərsə də əhatə baxımından daha genişdir. **Bu, 2002-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə aparılmış və vergi inzibatçılığının regional prinsiplər əsasında həyata keçirilməsini nəzərdə tutan köklü struktur və təşkilati islahatlardan sonra vergi xidmətinin bütün idarəetmə həlqələrinin, menecment sisteminin dəyişilməsini ehtiva edən və vergi ödəyiciləri yönümlü administrasiyaya çevrilməsini nəzərdə tutan ikinci belə transformasiyadır.**

Vergi sisteminə yeni baxış bucağı, ilk növbədə iki mühüm prinsip üzərində qurulur. Bunlardan birincisi və ən önəmlisi «fərdi yanaşma» prinsipidir. İndiyədək vergi xidmətində işin əsas ağırlığı böyük dövriyyəsi olan vergi ödəyiciləri ilə aparılan işlərə yönəldilirdi və dövriyyələrindən asılı olmayaraq, bütün vergi ödəyicilərinə (iri, orta və kiçik) eyni inzibati mexanizmlər tətbiq edilirdi. Yeni dönəmdə vergi administrasiyasının ilkin vəzifəsi bu yanaşmanı dəyişmək, hər kateqoriya vergi ödəyicisinə ona uyğun yanaşmalar formalaşdırmaqdır. Bu məqsədlə beynəlxalq təcrübədə geniş istifadə olunan «dövriyyə intervalları» prinsipini vergi inzibatçılığının bütün sahələrində tətbiq etməklə, vergi ödəyicilərinə münasibətdə yanaşmanı diferensiallaşdırmaq, daha səmərəli, çevik və şəffaf inzibatçılıq formalaşdırmaq nəzərdə tutulur. Burada əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrin iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı, eləcə də fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir.

İkinci mühüm prinsip isə sahibkarlıq subyektləri ilə «partnyorluq münasibətlərinin qurulması və dərinləşdirilməsi» prinsipidir. Vergilər Nazirliyi sahibkarlıq subyektləri ilə partnyorluq münasibətlərinin qurulmasına artıq bir neçə ildir başlasa da, yeni yanaşmada bu münasibətlərin konkret əsaslara keçilməsi və dərinləşdirilməsi, vergi ödəyicilərinin öhdəliklərinin dəqiqləşdirilməsi, onlara müasir və innovativ xidmətlərin göstərilməsi əsas götürülüb. Bu məqsədlə yenə də beynəlxalq təcrübədən faydalanaraq, intizamlı vergi ödəyiciləri üçün «yaşıl dəhliz» prinsipi əsasında innovativ yeniliklərə söykənən, fərdi və sürətli ünvanlı xidmətlər sisteminin tətbiqi qərara alınıb.

**Təşkilati strukturun transformasiyası**

Beləliklə, bu mühüm prinsiplər vergi orqanlarının yeni təşkilati strukturunun formalaşdırılması üçün təməl kimi qəbul edilib və Vergilər Nazirliyinin strukturunun müasir tələblər əsasında yenidən qurulmasına gətirib.

Yeni təşkilati strukturun mühüm elementlərindən biri kimi nazirliyin mərkəzi aparatında Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti yaradılıb. Departamentin birbaşa funksiyalarına vergi ödəyiciləri ilə işin konstruktiv dialoq, qarşılıqlı etimad və partnyorluq əsasında qurulmasına, onların məlumatlandırılmasına, ödəyicilər üçün özəl təlimlərin təşkil edilməsinə, bu məqsədlə geniş təşkilati və administrativ tədbirlərin həyata keçirilməsinə, nəticə etibarilə vergi mədəniyyətinin yüksəldilməsinə nail olmaq daxildir.

Qeyd etmək lazımdır ki, 2017-ci ilin yanvar ayından başlayaraq intizamlı vergi ödəyiciləri üçün «yaşıl dəhliz» prinsipi əsasında ənənəvi və innovativ üsullara söykənən, fərdi və sürətli ünvanlı xidmətlərin göstərilməsinə təşkilati və inzibati nəzarəti məhz bu yeni struktur yerinə yetirir. Bu ödəyicilər ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də əldə edirlər. Koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyəti vergi strukturundan ayrılan kuratorlar onlara ünvanlı xidmətlər göstərirlər. Bütün bunlar intizamlı vergi ödəyicilərinin stimullaşdırılmasına və sahibkarların rahat fəaliyyət göstərməsinə xidmət edir. Bu, digər vergi ödəyiciləri üçün də nümunədir və şübhəsiz ki, intizamlı vergi ödəyicisi olmağın üstünlüklərini nümayiş etdirməklə digər ödəyiciləri də buna təşviq edəcəkdir.

Vergi ödəyicilərinin fəaliyyətinin risk modulları üzərindən təhlil olunması, vergidən yayınma hallarının müasir texnologiyalara əsaslanaraq aşkar edilməsi, vergi nəzarəti metodlarının təhlil olunmuş məlumatlar əsasında seçilməsi, vergi potensialının daha dəqiq qiymətləndirilməsi, risklərin müasir İKT vasitələrindən istifadə edilməklə idarə olunmasını həyata keçirmək, eləcə də çoxsaylı dövlət qurumlarının inteqrasiya olunmuş elektron məlumat bazalarından əldə edilmiş məlumatların emalını təmin etmək məqsədilə nazirliyin strukturunda Vergi risklərinin təhlili və nəzarəti departamenti fəaliyyət göstərir. Nazirliyin aparatında aparılmış digər dəyişikliklərlə idarəetmə funksiyalarının təkmilləşdirilməsi, vergi orqanlarının fiskal funksiyalarına daxil olan sahələr üzrə əlaqələndirilməsi, o cümlədən vergi nəzarəti, audit, vergi borclarının alınması sahəsində fəaliyyətin effektivliyinin artırılması məqsədilə Vergi qanunvericiliyinin icrasına nəzarət və Vergi öhdəliklərinin icrasına nəzarət departamentləri yaradılıb.

Nazirliyin mərkəzi aparatında 2 yeni mərkəz də təsis edilib. Vergilər Nazirliyinin İnformasiya Texnologiyaları Mərkəzi (İTM) vergi sistemində informasiya texnologiyalarının daha geniş tətbiqi və nazirliyin İKT strategiyasının səmərəli həyata keçirilməsi ilə məşğul olur və bu sahədə vahid idarəetməni təmin edir. İTM-in əsas vəzifəsi vergi orqanlarında informasiya proseslərinin əlaqələndirilməsinə, geniş imkanlara malik proqram təminatlarının hazırlanması və onların fasiləsiz işlək vəziyyətdə saxlanılmasına, məlumat təhlükəsizliyinin təmin edilməsinə, bu sahələrdə risklərin qiymətləndirilməsinə, informasiya ehtiyatlarının və sistemlərinin mümkün təhdidlərdən qorunmasına, elektron imza vasitələrinin hazırlanması, tərtibi və idarə edilməsinə, müasir informasiya texnologiyaları infrastrukturu qurmaqla vergi inzibatçılığının təkmilləşdirilməsinə töhfə verməkdir.

Media və Kommunikasiya Mərkəzi isə vergi ödəyicilərinin və cəmiyyətin bütün təbəqələrinin məlumatlandırılması, vergi sistemində həyata keçirilən islahatların, vergi qanunvericiliyində baş vermiş dəyişikliklərin İKT-nin imkanlarından istifadə etməklə ictimaiyyətə düzgün çatdırılması, bu sahədə yeni yanaşmaların və yeni vahid kommunikasiya siyasətinin formalaşdırılması, media ilə işlərin müxtəlif platformalarda və sosial müstəvilərdə yenidən təşkili və genişləndirilməsi məqsədilə yaradılıb. Paytaxtda, eləcə də regionlarda fəaliyyət göstərən vergi orqanlarının da strukturunda ciddi dəyişikliklər edilib. Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti və 1 saylı Departament ləğv edilərək, onların bazasında Vergilər Nazirliyi yanında Milli gəlirlər departamenti, Bakı şəhəri Lokal gəlirlər departamenti və Bakı şəhəri Kiçik sahibkarlıqla iş departamenti yaradılıb. Bu departamentlərin yaradılması «dövriyyə intervalları» prinsipinə söykənir və vergi ödəyiciləri ilə işin qurulmasında yanaşmaları diferensiallaşdırmaq, iri, orta və kiçik sahibkarlarla fərdi yanaşma əsasında işləmək məqsədi daşıyır. Artıq strukturların fəaliyyət prinsipləri, vergi ödəyiciləri ilə işin qurulması ilə bağlı normativ-hüquqi bazası da təsdiq edilib.

Həyata keçirilən struktur və kadr islahatlarının daha bir mühüm məqamı yeni yaradılmış departamentlərdə direktorlar və baş direktorlar institutunun təsis edilməsidir. Direktorluq institutu işlərin və funksiyaların icrasında cavabdehlik və məsuliyyəti artırmaqla yanaşı, həm də idarəetmə sistemində horizontal və vertikal nəzarətin effektiv şəkildə həyata keçirilməsinə imkan verəcək, yeni yaradılmış departamentlərin daha səmərəli, düzgün və rasional idarə olunmasını təmin edəcəkdir.

**Beynəlxalq təcrübəyə əsaslanan yeni yanaşmalar**

Vergi inzibatçılığının yeni strukturu, ilk növbədə iri vergi ödəyiciləri üzrə işlərin daha keyfiyyətli təşkilinə, orta sahibkarlarla münasibətlərin əsasən partnyorluq müstəvisində qurulmasına, kiçik sahibkarlara münasibətdə isə daha sadə və səmərəli vergi inzibatçılığının formalaşdırılmasına xidmət edir. Fərqli dövriyyəyə malik və fərqli sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi belə ödəyicilərə daha səmərəli xidmətlərin göstərilməsinə, onlarda vergi nəzarəti tədbirlərinin minimallaşdırılmasına, həmin ödəyicilərə münasibətdə vergilərlə bağlı bütün tədbirlərin vahid vergi orqanından, faktiki olaraq «bir pəncərə» prinsipi üzərindən həyata keçirilməsinə imkan verir.

Vergilər Nazirliyi iri və xüsusi rejimli müəssisələrlə iş prinsipində geniş analitik təhlilə və risklərin qiymətləndirilməsi sisteminə əsaslanan siyasət yürüdəcək. Bu sahədə daha çox mövcud risklərin qiymətləndirilməsi, elektron auditin tətbiqi siyasətinə üstünlük veriləcək. Belə ödəyicilərdə vergidən yayınma riskləri fərdi və təfərrüatlı şəkildə aparılacaq, elmi əsaslı iqtisadi təhlillər əsasında proqnozlar müəyyən ediləcək, vergi nəzarəti tədbirləri, o cümlədən səyyar vergi yoxlamaları daha müfəssəl və əhatəli keçiriləcək.

Orta gəlirlərə malik lokal müəssisələrlə və intizamlı vergi ödəyiciləri ilə iş prinsipi isə şəffaf partnyorluq münasibətləri əsasında qurulacaq. Belə ödəyicilərə münasibətdə vergidən yayınma halları fəaliyyət sahəsinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən ediləcək, vergi nəzarəti üzrə optimal tədbirlər seçiləcək.

Kiçik sahibkarlara münasibətdə tamamilə yeni yanaşmalar tətbiq olunacaq. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə müəyyən edildiyi kimi, Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması məqsədilə aparılan vergi islahatlarında əsas diqqət kiçik və orta sahibkarlıq subyektlərinə (KOS) yönəldiləcək. Vergilər Nazirliyi tərəfindən vergi dərəcələrinin optimal səviyyəsinin müəyyənləşdirilməsi və KOS-un dinamik inkişafı məqsədilə biznes assosiasiyaları, ictimai təşkilatlar cəlb edilməklə məsləhətləşmələr aparılacaq, vergi siyasətində əsas diqqət əməkhaqlarına, habelə KOS subyektlərinin öz dövriyyələrini leqallaşdırmağa təşviq edilməsinə yönəldiləcək. Kiçik sahibkarlara münasibətdə əks-əlaqə prinsipi tətbiq olunacaq. Məqsəd daha çox məlumatların ötürülməsi, uçotun dəqiqləşdirilməsi, xidmət çeşidlərinin artırılması, bu kateqoriya sahibkarlıq subyektlərinin vergi və inzibati yükünün azaldılması ilə könüllü əməletmə səviyyəsini yüksəltməkdir.

**Vergilər Nazirliyi hesabatlılığın və bəyannamələrin təqdim olunması sistemində də dəyişikliklər edəcək.** Kiçik və orta sahibkarlıq subyektləri üçün bəyannamə və hesabat formaları sadələşdiriləcək. Müasir dövrdə vergi orqanları qarşısında duran başlıca vəzifələrdən biri aşağı risk qrupuna daxil olan vergi ödəyicilərinə hərtərəfli dəstəyin verilməsi, partnyorluq sazişləri əsasında vergi risklərinin minimallaşdırılmasıdır. İri və xüsusi rejimli müəssisələr üçün isə hesabatlılıqda analitik təhlillərə imkan verəcək təkmilləşdirmələr aparılacaq. Bu yanaşma ərazi vergi orqanlarında da tətbiq edilib. Yerli vergi orqanlarının strukturunda kiçik sahibkarlarla işləyəcək ayrıca idarələr və vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbələri yaradılıb.

Sahibkarları narahat edən əsas məsələlər - vergi yoxlamaları, xüsusilə kameral yoxlamalar, operativ nəzarət tədbirləri sahələrində müşahidə olunan problemlər, o cümlədən vergi əməkdaşları tərəfindən edilən aramsız zənglər, bank hesablarına tez-tez sərəncamların qoyulması və s. kimi məsələlər aradan qaldırılıb. Mühüm məsələlərdən biri də budur ki, yeni administrativ yanaşmada vergi orqanlarının təhlil aparılmadan, onun zəruri əsaslandırılması olmadan yoxlama keçirməsinin mümkünsüzlüyü öz əksini tapıb. Vergi öhdəlikləri və vergi potensialı risk modulları üzərindən dəyərləndiriləcək. Artıq Vergilər Nazirliyində risklərin avtomatik emal edilməsinə, təhlilinə və vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan verən risklərin qiymətləndirilməsi sistemi yaradılıb. Yerli strukturlar, ümumiyyətlə, öz qərarları əsasında vergi nəzarəti tədbirləri keçirməyəcək. Aşağı risk qrupları üçün vergi ödəyicilərinin hesablarına sərəncam qoyulması, ölkədən çıxışlarına məhdudiyyətlərin müəyyən edilməsi məhdudlaşdırılacaq, KOS subyektlərində yoxlamalar təkmilləşdiriləcək. İlk növbədə, KOS subyektlərində yoxlamaların risk dərəcəsi əsasında aparılması prinsiplərinin tətbiqi genişləndiriləcək, yoxlamaların sayı optimallaşdırılacaq. KOS subyektlərində səyyar yoxlamaların sayı məhdudlaşdırılacaq və elektron yoxlama metodu tətbiq ediləcək. Operativ vergi nəzarəti prosesi təkmilləşdirilərək, yeni qaydalara uyğun, daha sivil formada aparılacaq. İKT sahəsində yeni innovativ texnologiyaların tətbiqi sayəsində ƏDV-nin qaytarılması prosesi sürətləndiriləcəkdir. 2011-ci ildən təsdiqlənmiş Avropa standartları əsasında fəaliyyət göstərən («Austrian Standards plus» tərəfindən müvafiq sertifikat verilib) və cavablandırdığı sorğuları hüquqi qüvvəyə malik olan Vergilər Nazirliyinin Çağrı Mərkəzinin fəaliyyəti daha da təkmilləşdiriləcək.

Bütün bu dəyişikliklər iqtisadiyyatın cari strukturlaşdırılmasına uyğun olaraq yaxın gələcək üçün əsas fiskal yükün iri ödəyicilər üzərində cəmlənməsinə, kiçik və orta sahibkarlığın vergi və inzibati yükünün azaldılması yolu ilə onların fəaliyyətinin daha da genişlənməsi hədəflərinə xidmət edir. Vergi islahatlarının davamlılığı KOS subyektlərinin rəqabət qabiliyyətini daha da artıracaq, xüsusilə yeni yaranan müəssisələrin dayanıqlılığına müsbət təsir göstərəcək, ölkədə xarici şirkətlərin nümayəndəliklərinin açılmasını təşviq edəcək və iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalar cəlb edilməsi üçün daha əlverişli şərait yaradacaq.

**Beləliklə, cənab Prezidentin Davos Forumunun saytında yayımlanmış məqaləsində də qeyd edildiyi kimi, vergi və gömrük sisteminin şəffaflaşması istiqamətində çox ciddi addımlar atılıb.** Şübhəsiz ki, həm dövlət, həm də vergi orqanları bütün bu yeniliklərin vergi ödəyiciləri tərəfindən də adekvat qarşılanacağına, onların öz vergi öhdəliklərinin icrasına məsuliyyətlə yanaşmaqla vergiləri vaxtında və tam həcmdə yerinə yetirəcəyinə əmindirlər. Sahibkarlar da öz növbəsində fəaliyyətlərini şəffaf qurmalıdırlar. Şəffaflıq birtərəfli qurulmur, biz qarşılıqlı etimada söykənən etibarlı partnyorluq münasibətlərinin tərəfdarıyıq. Digər tərəfdən, unutmaq lazım deyil ki, vergi orqanları öz fiskal funksiyalarını həyata keçirmək üçün texnoloji imkanlarını daim genişləndirirlər.

**Bilik menecmentinə əsaslanan insan resursları**

Bununla belə, Vergilər Nazirliyi öz fiskal funksiyalarının uğurla yerinə yetirilməsi, effektiv həyata keçirilməsi üçün texnoloji və inzibati potensialının gücləndirilməsi siyasətini, müasir vergi inzibatçılığında bilik menecmentinin və texnologiyaların rolunun artırılmasına yönəlik islahatları bundan sonra da davam etdirəcəkdir. Müasir dövrdə hər bir ölkənin vergi sisteminin səmərəli fəaliyyəti vergi inzibatçılığının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinə əsaslanan bilik menecmentinin tətbiqini obyektiv zərurətə çevirib. Bilik menecmentinin tətbiqi vergi orqanları və vergi ödəyicilərinin risklərinin müəyyənləşdirilməsi və idarə edilməsi baxımından yeni imkanlar açır. Bilik menecmenti qeyri-maddi aktivlərin dəyərlərə çevrilməsinə imkan yaradan ən müasir idarəetmə sahəsi olmaqla verilənlərin məlumatlara, məlumatların biliklərə çevrilməsi, biliklər əsasında düzgün idarəetmə qərarlarının verilməsi və dəyərlərin əldə edilməsi məqsədilə istifadə olunur. İnnovativ yanaşmalar, informasiya texnologiyaları, təməlli bilik menecmentinin tətbiqi nəticəsində təşkilatın intellektual və texnoloji kapitalı artır, insanların bilikləri və təşkilatçılıq mədəniyyəti, strukturların fəaliyyətləri və texnologiyalar bir-biri ilə birləşərək səmərəli işləyir, risklər minimallaşdırılır. Bununla da daha az xərclə vergi öhdəliklərinə əməl edilməsi təmin olunur. Vergilər Nazirliyi insan resurslarının təkmilləşdirilməsi, peşəkar kadr hazırlığının daha yüksək səviyyəyə qaldırılması məsələsinə xüsusi diqqətlə yanaşır. 2017-ci ildə bu məsələ milli vergi sistemində prioritet fəaliyyət istiqaməti olacaq. Qarşıda duran hədəf və məqsədlərin həyata keçirilməsində aparıcı qüvvə məhz analitik düşüncəyə, müvafiq bilik və bacarıqlara sahib olan insan resurslarıdır. **Bu məqsədlə Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi reallaşdırılıb. Fransa və İspaniyadan olan tərəfdaşlarımızla birlikdə innovativ yanaşmaları olan, yeni baxışlara malik menecer qrupları formalaşdırılıb və artıq onlar yeni vergi siyasətinin həyata keçirilməsində mühüm rol oynayırlar.**

Bundan başqa, vergi xidməti əməkdaşlarının ümumi hazırlığının artırılması məqsədilə sertifikatlaşdırma proqramları icra olunur. Bu proqram müxtəlif səviyyəli sertifikatların əldə edilməsi üçün təlim və imtahandan ibarətdir və vergi işçisinin cari hazırlığını, vergi sahəsində bilik və bacarıqlarını daim artırmaq üçün stimuldur. Qarşıdakı illərdə kadrların müvafiq vakansiyalara təyinatında və irəliləməsində bütün bunlar əsas meyar kimi götürüləcəkdir.

Vergi xidmətinin insan resurslarının inkişaf etdirilməsində Vergilər Nazirliyinin Tədris Mərkəzinin mühüm rolu var. Beynəlxalq Antikorrupsiya Akademiyası ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, korrupsiya ilə mübarizə sahəsində regional mərkəz hesab edilən Vergilər Nazirliyinin Tədris Mərkəzində hər il yüzlərlə vergi əməkdaşı müxtəlif təkmilləşdirmə kursları keçir, yeni bilik və bacarıqlara yiyələnirlər.

Milli vergi sistemində beynəlxalq təcrübənin tətbiqi sahəsində Vergilər Nazirliyinin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əlaqələrini qeyd etmək istərdim. 2002-ci ildən təşkilatın tamhüquqlu üzvü olan Azərbaycan IOTA ilə əlaqələrin dərinləşdirilməsinə, üzv ölkələrin vergi administrasiyalarının mütərəqqi təcrübələrinin öyrənilməsinə və onların milli vergi sistemində tətbiqinə geniş yer verir. Hazırda biz IOTA-ya üzv ölkələrin vergi administrasiyalarında təlim-tədris sahəsində yaxşı təcrübələrin öyrənilməsini və tətbiqini, e-təlim proseslərini yaxından izləyirik. Vergi işçilərinin təlimləndirilməsi və müasir tədris prosesinə cəlb edilməsi 2017-ci ildə prioritet fəaliyyətimizə daxildir. E-təlimlə bağlı ən son innovasiyaları tətbiq etməyi qarşıya məqsəd qoymuş Azərbaycanın vergi administrasiyası bu sahədə IOTA ilə mövcud olan məhsuldar və konstruktiv əməkdaşlığa böyük önəm verir.

Əminəm ki, vergi xidmətində aparılan islahatlar, vergi qanunvericiliyində tətbiq edilən liberallaşdırma, vergi mühitinin cəlbediciliyinin artırılması üçün həyata keçirilən tədbirlər, vergi yükünün əsaslı şəkildə azaldılması, informasiya texnologiyalarına və bilik menecmentinə əsaslanan vergi inzibatçılığının formalaşdırılması və iqtisadiyyatın tələblərindən irəli gələn vergi menecmenti Azərbaycan iqtisadiyyatının yeni inkişaf yoluna, eləcə də sahibkarlığın inkişafına, ölkəmizin tərəqqisi naminə biznes və vergi orqanlarının səmərəli əməkdaşlığına öz əvəzsiz töhfəsini verəcəkdir.

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ AUDİT QİYMƏTLƏNDİRİLMƏSİ



**i.e.d., prof. Hacıyev Fazil, Azərbaycan Dövlət İqtisad Universiteti, "Mühasibat uçotu və audit" kafedrası**

2015-ci ilin statistikası Azərbaycanda turizm göstəricilərinin artan xətt üzrə getdiyini göstərir. Ölkəyə gələn xarici vətəndaşların sayı həmin il 973,5 min nəfər olub. Onların 310,7 min nəfəri Rusiya Federasiyası, 283,4 min nəfəri Gürcüstan, 148,2 min nəfəri Türkiyə, 72,8 min nəfəri İran, 27,2 min nəfəri Ukrayna, 19,4 min nəfəri Birləşmiş Krallıq, 12,5 min nəfəri Qazaxıstan, 7,8 min nəfəri Almaniya, 6,5 min nəfəri Amerika Birləşmiş Ştatları, 85,0 min nəfəri isə digər ölkələrin vətəndaşlarıdır.

Bu müddətdə ölkəyə gələn xarici vətəndaşların ümumi sayında Rusiya, Gürcüstan, Türkiyə və İran vətəndaşlarının xüsusi çəkisi daha çox olub və müvafiq olaraq 31,9 faiz, 29,1 faiz, 15,2 faiz və 7,5 faiz təşkil edib. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycana səfər edən Almaniya, Böyük Britaniya, İtaliya, Avstriya, Belçika, Çex Respublikası, İsveçrə, Fransa, Niderland, Portuqaliya, Serbiya, Slovakiya, Yunanıstan, eləcə də Belarus, Ukrayna, Türkmənistan, BƏƏ, İsrail, Yaponiya və Avstraliya vətəndaşlarının sayında daha çox artım müşahidə olunub.

Davamlı olaraq 2016-cı ildə Azərbaycana gələn turistlərin sayı artmışdır. Belə ki, ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı 2 milyon nəfərdən çox olmuşdur. Bu da keçən illə müqayisədə 11,7 faiz artım deməkdir. Bu il ölkəyə gələn turistlər arasında Rusiya, Gürcüstan, Türkiyə, İran və başqa dövlətlərdən gələnlər çoxluq təşkil etmişdir. 2015-ci illə müqayisədə 2016-cı ildə ölkəyə İordaniyadan 2 dəfə, Küveytdən 3,2 dəfə, Qətərdən 5,5 dəfə, Səudiyyə Ərəbistanından və Omandan 10 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən 22 dəfə və İraqdan 30 dəfə çox turist gəlmişdir. Bütün bu gəlişlər Azərbaycanda yaranmış turizm mühitinin yaxşılaşmasından xəbər verir.

Göründüyü kimi, Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətədavamlılığı yüksəlmişdir. Görülən kompleks işlərin nəticəsi olaraq, ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir (cədvəl 1).

Cədvəlin məlumatlarından göründüyü kimi, 2005-2015-ci illərdə ölkədə turist müəssisələrinin sayı davamlı olaraq artmışdır. Belə ki, 2005-ci ildə turist müəssisələrinin sayı 81 vahid olmuşdursa, 2015-cı ildə 243, 2013-cü ildə 197, 2012-ci ildə isə 170 vahid təşkil etmişdir. 2005-ci illə müqayisədə 2015-ci ildə turist müəssisələrinin sayı 3 dəfə artmışdır.

Turizm fəaliyyətini xarakterizə edən keyfiyyət göstəricilərindən biri turist müəssisələrinin əldə etdiyi gəlirdir. 1 saylı cədvəlin məlumatlarından göründüyü kimi, bu dövrdə turist müəssisələrinin əldə etdiyi gəlir artmışdır. Belə ki, 2015-ci ildə turizm müəssisələrinin əldə etdiyi gəlirin həcmi təxminən 36482,2 mln. manat, 2013-cü ildə 29600,9 mln. manat, 2012-ci ildə isə 2712,5 mln. manat təşkil etmişdir. 2005-ci illə müqayisədə 2015-ci ildə turizm müəssisələrinin gəlirləri altı dəfə, 2013-cü illə müqayisədə isə 23,2% artmışdır. Turist müəssisələrinin əldə etdiyi gəlirin bu dəyişiklikləri qarşılığında turist müəssisələrinin məhsul (xidmət) istehsalına çəkilən xərclərinin dəyişməsi müvafiq olaraq 5,8 dəfə və ya 18% təşkil etmişdir.

**Cədvəl 1.**

**Respublikada turizm müəssisələrinin əsas göstəricilərinin təhlili**

| Göstəricilər | 2001 | 2005 | 2010 | 2012 | 2013 | 2015 |
|---|---|---|---|---|---|---|
| Müəssisələrin sayı, vahid | 18 | 81 | 126 | 170 | 197 | 243 |
| İşçilərin sayı, nəfər | 127 | 646 | 1418 | 1730 | 1729 | 1586 |
| Müəssisələrin əldə etdiyi gəlir, min manat | 443,9 | 6020,9 | 19065,3 | 2712,5 | 29600,9 | 36482,2 |
| Məhsul (xidmət) istehsalına çəkilən xərclər, min manat | 1250 | 5160 | 17811,3 | 23540,8 | 25292,5 | 29840,0 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının sayı, ədəd | 2172 | 16444 | 34121 | 62866 | 65448 | 44615 |
| Əhaliyə satılmış turizm yollayış blanklarının dəyəri, min manat | 400 | 3253,3 | 25848,7 | 40693,2 | 42892,3 | 33474,7 |
| Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər | 11679 | 40008 | 69923 | 101431 | 91961 | 61965 |

Əhaliyə satılmış turizm yollayış blanklarının sayının dinamikasındakı dəyişikliklər turist axınının intensivliyi haqqında ümumi təsəvvür yaradır. Təhlil edilən dövrdə ölkənin turizm sektorunun bu göstəricisinə də davamlı artım xas olmuşdur. Belə ki, 2005-ci ildə əhaliyə satılmış turizm yollayış blanklarının ümumi sayı 16444 ədəd, 2015-ci ildə 44615 ədəd təşkil etmişdir. 2005-ci illə müqayisədə 2015-ci ildə əhaliyə satılmış turizm yollayış blanklarının ümumi sayı 2,7 dəfə artmışdır. Bütün bunlar onu göstərir ki, hələ də respublikada turizm fəaliyyətinin yaxşılaşdırılması üçün istifadə olunmayan imkanlar (ehtiyatlar) vardır.

Göründüyü kimi, Azərbaycanda turizm xidmətlərinin coğrafiyası böyükdür. Bu baxımdan, xarici ölkə vətəndaşlarının hansı növ turizm xidməti üçün ölkəyə gəlməsinin böyük iqtisadi əhəmiyyəti vardır. Belə ki, bu gəliş zamanı xarici ölkə vətəndaşlarının həm ölkə haqqında maraq dairəsinin, həm ölkənin hansı sahəsinin inkişafına daha çox diqqət ayıracağının, həm də hansı növ turizm xidmətlərində problemlərin mövcudluğu və bunların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi üçün stimul yaranır. (Cədvəl 2)

Xarici turistlərin 33,3%-i istirahət və əyləncə, 31,5%-i biznes və işgüzar, 1,8%-i müalicə, 0,6%-i dini, 27%-i qohumları, dostları ziyarət və 5,8%-i digər turizm məqsədi ilə ölkəyə səfər etmişdir. Təhlil göstərir ki, 2015-ci ildə ölkədə 11040,6 min gecələmə keçirilmişdir. Gecələmələrin 49,8%-i Bakı şəhərinin, 9,6%-i Quba-Xaçmaz, 5,1%-i Aran, 14,6%-i Gəncə-Qazax, 5,1%-i Lənkəran, 2,2%-i Şəki-Zaqatala, 6,5%-i Naxçıvan, 3,1%-i Abşeron, 4%-i digər iqtisadi rayonlarda keçirilmişdir. Hesablamalar göstərir ki, bir turist ölkədə orta hesabla 5,2 gecələmə keçirmişdir.

Hazırda Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyətinin mühüm bir hissəsi turizm sahəsinin inkişafı, Azərbaycanın zəngin mədəniyyətinin, təbii gözəlliklərinin, turizm imkanlarının xaricdə tanıdılması ilə bağlıdır. Beynəlxalq turizm sərgilərində fəal iştirak, dünyanın aparıcı televiziya kanallarında Azərbaycanın turizm imkanlarının təbliği, nüfuzlu nəşrlərin brendi ilə ölkəmiz haqqında bələdçi kitablarının hazırlanması və s. bu məqsədə xidmət edir. Bununla yanaşı, ölkəmiz beynəlxalq təşkilatlarda, o cümlədən Ümumdünya Turizm Təşkilatı, İslam Konfransı Təşkilatı, GUAM, İƏT və başqa qurumlarla sıx əməkdaşlıq edərək, artıq yeni bir turizm istiqaməti kimi dünyaya açılmağa başlayıb. Azərbaycan hər il 20-yə yaxın beynəlxalq turizm sərgisində təmsil olunur. Xarici ölkələrlə turizm əlaqələrinin genişləndirilməsi, respublikamızda mehmanxana və mehmanxana tipli obyektlərin, eləcə də turizm şirkətlərinin sayının artması, dünya standartlarına uyğun turizm xidməti infrastrukturunun yaradılması bu sahədə məqsədyönlü fəaliyyətin nəticəsidir. Hazırda turistlər üçün viza rejiminin sadələşdirilməsi, yeni turist qarşılama yerlərinin yaradılması, ilboyu turizmin təşkili, Azərbaycanın turizm potensialının dünyanın ən məşhur televiziya kanallarında tanıdılması istiqamətində fəaliyyətimiz davam etdirilir. Bunun nəticəsidir ki, 2016-cı ildə ölkəyə qonşu ölkələr üzrə gələnlərin sayının azalmasına baxmayaraq, İran İslam Respublikası, İran körfəzi və Yaxın Şərq, Avropa, Asiya, Afrika ölkələri, Amerika və Avstriya üzrə gələnlərin sayında artım olub.

Bu gün Azərbaycanda beynəlxalq turizm sənayesi diqqət mərkəzindədir. Belə ki, Dünya Səyahət və Turizm Şurasının (WTTC) qiymətləndirməsinə görə, 2015-ci il ərzində ÜDM-də turizmin birbaşa çəkisi 1,3 mlrd. manat, ümumi çəkisi isə 4,9 mlrd. manat olmuşdur ki, bu da öz növbəsində göstəricilərin müvafiq olaraq 2,4% və 8,8% təşkil etməsi deməkdir. Sözügedən qurumun məlumatlarına əsasən, ölkədaxili turizm xərcləri 21% artaraq 1.7 mlrd. manat, turizm sahəsinə qoyulan kapital sərmayəsi isə 20% artaraq 360 mln. manat təşkil etmişdir.

**Cədvəl 2.**

**Azərbaycana gəlmiş xarici turistlərin məqsədləri**

*İllər üzrə dinamikası, min nəfər*

| Turistlərin məqsədləri | 2005 | | 2012 | | 2013 | | 2015 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Min nəfər | % | Min nəfər | % | Min nəfər | % | Min nəfər | % |
| Xarici ölkə vətəndaşlarının turizm məqsədilə ölkəyə gələnlərinin sayı, cəmi | 692,7 | 100% | 1985,9 | 100% | 2129,5 | 100% | 2006,2 | 100% |
| İstirahət, əyləncə turizmi | 404,5 | 58 | 687,8 | 35 | 705,2 | 33 | 668,8 | 33,3 |
| Biznes və işgüzar turizm | 261,8 | 38 | 595,3 | 30 | 648,9 | 30 | 632,3 | 31,5 |
| Müalicə turizmi | 7,6 | 1 | 43,0 | 1 | 46,2 | 1 | 36,5 | 1,8 |
| Dini turizm | 4,2 | 1 | 13,2 | 1 | 13,7 | 1 | 11,5 | 0,6 |
| Qohumların, dostların ziyarəti | - | - | 607,8 | 62 | 673,7 | 32 | 542,0 | 27,0 |
| Digər turizm məqsədləri | 14,6 | 1 | 38,8 | 1 | 41,8 | 1 | 115,1 | 5,8 |

Azad bazar iqtisadiyyatı şəraitində Azərbaycanda aparılmış radikal islahatlar nəticəsində baş vermiş əhəmiyyətli sosial-iqtisadi dəyişikliklər turizm fəaliyyəti üçün yeni iqtisadi mühit formalaşdırmışdır. Bu baxımdan turizm formalarının tənzimlənməsi və onların fəaliyyətinin təhlili, hər şeydən əvvəl audit qiymətləndirməsinə şərait yaratmışdır.

Turizm formalarının müvəffəqiyyətlərinin əsas şərtlərindən biri onun fəaliyyətinin audit qiymətləndirməsidir. Hazırda turizm fəaliyyətinin müəyyən edilməsində və audit qiymətləndirilməsində çox zəruri olan göstəricilərdən istifadə olunur:

1. Turist fəaliyyətindən əldə edilən gəlir;
2. Turizm gəlirinin əhalinin hər bir nəfərinə düşən həcmi;
3. Turizm gəlirinin ümumdaxili məhsulda xüsusi çəkisi;
4. Əhaliyə satılmış turizm yollayış blanklarının dəyəri;
5. Turizm xidmətinin keyfiyyəti;
6. Turizm fəaliyyətinin səmərəliliyi;
7. Məhsul (xidmət) istehsalına çəkilən xərclər;

Beləliklə, yuxarıda qoyulan məsələnin həllində, həmçinin ölkə rəhbərinin təşəbbüsü ilə hazırlanan "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritəsi"nin də böyük təsiri olacaqdır. Belə ki, yol xəritəsində müəyyən edilən prioritet istiqamətlərdən biri də xidmət sektorudur. Xidmət sektorunun əsası olan turizm fəaliyyətinin formalaşması və inkişafı üçün aşağıdakılar təklif olunur:

1. Turizmin inkişafı üçün məqsədyönlü büdcə fondunun yaradılması.
2. Turistlərin ölkə ərazisində maneəsiz hərəkətinin təmin edilməsi.
3. Xaricə gedən Azərbaycan turistlərinin hüquqlarının və qanuni maraqlarının qorunmasının təmin edilməsi.
4. Turizm fəaliyyətinin tənzimlənməsində hüquqi-normativ aktların təkmilləşdirilməsi.
5. Ekoloji turizm fəaliyyəti üçün xüsusi qoruqların yaradılmasının təmin edilməsi.
6. Turizm bazarının xüsusiyyətlərini nəzərə alaraq vahid qaydalar sisteminin hazırlanması.
7. Ölkəyə gələn turistlər üçün viza rejiminin sadələşdirilməsi.
8. Turizmin infrastruktrunun təkmilləşdirilməsinin təmin edilməsi.
9. Turizm məhsullarının ixracına üstünlük verilməsi.
10. Turizm sənayesinin daha da formalaşmasına şəraitin yaradılması.
11. Turizm fəaliyyətində sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması.
12. Turizm sahəsində beynəlxalq əməkdaşlığın və işgüzar əlaqələrin genişlənməsinə nail olmaq.

Ümumiyyətlə, xidmət sektorunun əsası olan turizm fəaliyyətinin formalaşması, inkişafı və rəqabətədavamlılığı ölkənin gələcək sabit inkişafında, beynəlxalq iqtisadiyyata inteqrasiyasında və dünya iqtisadiyyatında əsaslı mövqe tutmasında tam təminatçı olacaqdır.

## "PAŞA Həyat" beynəlxalq sertifikatını yeniləyib

"PAŞA Həyat Sığorta" ASC-nin keyfiyyətin idarəetmə sisteminin beynəlxalq standartlara uyğunluğunun təsdiqlənməsi üçün "TÜV Thüringen" beynəlxalq sertifikatlaşdırma şirkəti tərəfindən auditi keçirilib. Auditin nəticəsi olaraq, "PAŞA Həyat Sığorta" ASC-nin daha müasir uyğunluq sertifikatına - ISO 9001:2015 beynəlxalq keyfiyyət standartına layiq görülməsi qərara alınıb.

Şirkətinin İctimaiyyətlə əlaqələr xidmətinin verdiyi məlumata görə, audit müştərilərin şirkət tərəfindən təqdim olunan məhsul və xidmətlərdən məmnunluq səviyyəsinin artırılması məqsədi ilə şirkətdə keyfiyyətin idarəetmə sisteminin standartının bütün tələblərinə uyğunluğunun yoxlanılması üçün keçirilib.

Audit zamanı keyfiyyətin idarəetmə sisteminin planlaşdırılmasının və tətbiqinin səmərəliliyi, həmçinin şirkətin siyasətində əks olunmuş məqsədlərə nail olunmasında effektivlik dərəcəsi də yoxlanılıb. Uğurla yekunlaşan yoxlama zamanı keyfiyyət idarəetmə sisteminin inkişafında şirkətin əməkdaşlarının yüksək peşəkarlığının rolu xüsusi qeyd olunub.

## Azercell Karyera Sərgisində iştirak etdi



2 mart 2017-ci il tarixində ADA-da 5-ci Karyera Sərgisi keçirilib. Bu sərgidə Azercell Telekom MMC də iştirak edərək, ayrıca stendi ilə yarmarka iştirakçılarının xidmətində olub. Şirkət nümayəndələri Azercell-ə işə qəbul olmaq istəyən məzunlar üçün informasiya sessiyaları təşkil ediblər və şirkətdə mövcud olan vakansiyalar barədə sərgi iştirakçılarını məlumatlandırıblar. İşə qəbul şöbəsinin əməkdaşları Azercell-ə işə qəbul və şirkətin elan etdiyi Tələbə Təqaüdü və Təcrübə proqramları haqqında məlumat veriblər. Qeyd edək ki, Azeronline şirkəti də sərgidə iştirak edib. Tələbələr mövcud əmək bazarında onların ixtisaslarına olan tələbat barədə məlumat əldə etmək, işəgötürənlərlə ilkin əlaqələr qurmaq, işəgötürənlər isə öz növbəsində potensial kadrların seçimini aparmaq imkanı qazanıblar.

Tədbirin keçirilməsində məqsəd öz bacarıq və biliklərinə uyğun iş axtaran gənclərə məsləhətlər vermək, onlara gələcək karyeralarını qurmaqda yardım etməkdir.

## Barama Mərkəzi WoWoman Platformasının "Ən yaxşı tərəfdaşı" oldu

Azərbaycanda böyük populyarlıq qazanan WoWoman - xanımların şəxsi inkişaf platforması 2 illiyini qeyd edib. Fairmont Baku otelində baş tutan hesabat xarakterli toplantıda platformanın 2016-cı ildəki uğur və nailiyyətləri qeyd olunub, həmçinin bu layihəyə dəstək olan qurumlar mükafatlandırılıb.

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi bu il ərzində WoWoman platformasının ən yaxşı tərəfdaşlarından biri elan olunub. Qeyd edilib ki, WoWoman platforması ötən il Barama Mərkəzi ilə birlikdə "TechFall 2016 Hackathon" layihəsini həyata keçirib. Layihə çərçivəsində proqramçılar 36 saat ərzində yatmadan, fasiləsiz yeni mobil tətbiqetmə hazırlayaraq, "Hackathon" formatında yarışıblar.

WoWoman platformasının ötən il ərzindəki ən uğurlu layihələrindən biri olan "Tech-Tech Xanım" da Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyilə baş tutub. İl ərzində İT sahəsində çalışan xanımlar üçün müxtəlif proqramlar, görüşlər keçirilib, onlara İT əsasları, LİNUX, CİSCO, ORACLE kimi proqramlar haqqında məlumatlar verilib. Proqram çərçivəsində 20-dən çox tədbir keçirilib, 1500-dən çox ərizə daxil olub. Ötən il, həmçinin "WoWenture" sahibkarlıq proqramı, HR sahəsində çalışan xanımlar üçün "HR Academy" layihəsinə start verilmişdi.

# A-Qroup Sığorta Şirkəti ASC-nin 31 dekabr 2016-cı il tarixinə balans hesabatı

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **742 857,00** | **702 216,43** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | **136 286,16** | **122 657,55** |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **879143,16** | **824 873,98** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **19631,31** | **20 693,24** |
| **Debitor borcları:** | **4393827,73** | **5 131 877,64** |
| birbaşa sığorta üzrə | 4322332,31 | 4 537 920,51 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | **45491,82** | **17 095,67** |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | 45491,82 | 17 095,67 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | | 570 160,62 |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | 24580,00 | 6 700,00 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 1423,60 | 0,84 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **21744223,29** | **16 182 578,37** |
| kassa | 15413,26 | 3 728 402,83 |
| hesablaşma hesabı | 253731,10 | 2 099 951,98 |
| valyuta hesabı | 4868312,53 | 2 386 073,56 |
| depozit hesablar | 16606766,40 | 7 968 150,00 |
| sair pul vəsaitləri | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **996110,99** | **965 955,89** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 996110,99 | 965 955,89 |
| **Sair qısamüddətli aktivlər:** | **14295,04** | **6 512,75** |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | 14295,04 | 6 512,75 |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | **27168088,36** | **22 307 617,89** |
| **CƏMİ AKTİVLƏR** | **28047231,52** | **23 132 491,87** |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **8005750** | **8 005 750,00** |
| **Emissiya gəliri** | **998013,1** | **998 013,10** |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **7821962,01** | **2 818 936,82** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 7889256,57 | 2 866 983,03 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı, mənfəət (zərər) üzrə düzəlişlər | -67294,56 | -48046,21 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **16825725,11** | **11 822 699,92** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **10168375,59** | **10 631 615,68** |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 10168375,59 | 10 631 615,68 |
| **Qarşısıalınma tədbirləri fondu** | **-212,74** | **-212,74** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | **719041,1** | **905,96** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | **719041,1** | |
| sosial sığorta və təminat üzrə | | 905,96 |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **20249,36** | **262 323,36** |
| təkrarsığortaçı üzrə | 20 249,36 | 262 323,36 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | **0,54** |
| **Sair öhdəliklər** | **291967,79** | **402 121,71** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **11199421,1** | **11 296 754,51** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **22085,31** | **13 037,44** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 22085,31 | 13 037,44 |
| **Sair qısamüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **22085,31** | **13 037,44** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **11 221 506,41** | **11 309 791,95** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **28 047 231,52** | **23 132 491,87** |
| Qeyd: Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

**Caspian Consulting & Partners**

Sapphire Plaza 5th floor,
Nizami str.1/3, Baku Azerbaijan
Phone: (+994 12) 505 58 47/48
Fax: (+994 12) 505 58 48
E-mail: office@cc.baku.az
www.caspian-consulting.com

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"A-Qroup Sığorta Şirkəti" ASC-in rəhbərliyinə**

Ünvan: Bakı ş., Nəsimi rayonu, Lev Tolstoy, ev 172

**Rəy**

Biz "A-Qroup Sığorta Şirkəti" ASC-in 31 dekabr 2016-cı il tarixinə olan balans, gəlirlər və zərərlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Şirkətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditimizi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının apardığımız auditə aid olan etik normalara uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirməmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC
Ünvan: Bakı ş. Nizami küç. 1/3

Direktor: Nurlan Guliyev

Auditor: Elnurə Abdinova

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət Caspian Consulting and Partners Limited Liability Company Azerbaijan Republic

Tarix: 16.01.2017

## "Bank Silk Way" 24/7 rejimində xidmət göstərən "Elektron şöbə" istifadəyə verib




Müştərilərin rahatlığını təmin etmək məqsədi ilə yaradılan "Elektron şöbə" paytaxtın Yasamal rayonunda Əbdürrəhim bəy Haqverdiyev küçəsi, 74A ünvanında yerləşir.

Həftənin 7 günü, günün 24 saatı ərzində xidmət göstərən "Elektron şöbə"sində cash-in bankomatları və avtomatik valyutadəyişmə terminalları müştərilərin ixtiyarındadır. Şöbədə vəsaitin karta mədaxil olunması (cash-in) və vəsaitin nağdlaşdırılması üzrə əməliyyatlar aparmaq mümkündür. "Cash-in" əməliyyatı üzrə 1 dəfəyə karta maksimum 50 ədəd əsginaz mədaxil etmək olar.

Avtomatik valyutadəyişmə terminallarında AZN, USD valyutaları qəbul edilir, bunun müqabilində isə AZN, USD valyutasında əskinazları almaq mümkündür. Qeyd edilən ünvanda, həmçinin ödəniş terminalları da quraşdırılıb. Ödəniş terminalları vasitəsilə müştərilər kredit və kommunal xidmət ödənişlərini də həyata keçirə bilərlər.

## "Bank Avrasiya" 6 milyon manata yaxın xalis mənfəət əldə etdi

"Bank Avrasiya" 2017-ci ilin yanvar ayını 5 milyon 978.6 min manat xalis mənfəət ilə başa vurub. Yanvarda Bankın cəmi gəlirləri 1 milyon 511 min manat təşkil edib. Bu, 2016-cı ilin yanvar ayı ilə müqayisədə azdır. "Bank Avrasiya" ötən ilin yanvarında 1 milyon 834 min manat cəmi gəlir əldə etmişdi.

Bankın bu ilin yanvar ayındakı 1 milyon 511 min manat cəmi gəlirindən faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra 958.2 min manat əməliyyat mənfəəti qalıb. Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın 5 milyon 20.2 min manatının mənfəətə əlavə edilməsilə, Bank yanvar ayını 5 milyon 978.6 min manat xalis mənfəət ilə başa vurub. Yüksək mənfəət Bankın kapitalının artmasında da əks olunub.

Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatdan 5 milyon manatdan çox vəsaitin azad olması "Bank Avrasiya"da kredit və depozit itkiləri üzrə risklərin aradan qalxdığına işarədir.

## "AtaBank" ASC qadınlar arasında breyn-rinq yarışı keçirdi

6 mart 2017-ci il tarixində "Excelsior Hotel Baku" otelində "AtaBank" ASC-nin dəstəyi ilə 8 Mart - Beynəlxalq qadınlar gününə həsr olunmuş qadınlararası breyin-rinq yarışı təşkil olundu. Breyn-rinq yarışı "Parlaq zəka" oyununun aparıcısı Aydın Piriyev tərəfindən keçirildi. Oyunda iştirakçıların cavablandırdığı suallar qadın dünyasına həsr olunmuşdu. Oyunun gedişində bayramın tarixi, dünya tarixində görkəmli qadınlar, qadınların cəmiyyətdə rolu və s. ilə əlaqədar maraqlı suallara cavablar səslənmişdir.

Tədbirdə "AtaBank" ASC-nin Kommunikasiyalar və PR şöbəsinin rəisi Oruc İbrahimov iştirakçıları 8 Mart - Beynəlxalq Qadınlar bayramı münasibətilə təbrik etmiş, onlara uğurlar arzulamışdır. Qalib komandaya təşkilatçılar tərəfindən xatirə hədiyyələri və sertifikatlar təqdim edilmişdir. Oyun musiqi nömrələri ilə müşayiət olunmuş, "Excelsior Otel Baku" otelinin HR-meneceri Kamran Rzayev rəngarəng Azərbaycan və xarici musiqili kompozisiyalar ifa etmişdir.

"AtaHolding" Şirkətlər Qrupunun Korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova qeyd etmişdir ki, bu tədbirin keçirilməsində məqsəd qadınlar üçün bayram atmosferi təşkil etmək, onları sevindirmək və onların kollektivin ayrılmaz hissəsi olduğunu göstərməkdir.



## AGBank yeni kampaniyaya start verir

6 mart 2017-ci il tarixindən etibarən AGBank "Visa ilə ödəyin və Avroviziya 2017 yarımfinalına biletlər udun" kampaniyasına başlayıb. Aksiya 20 aprel 2017-ci il tarixinədək qüvvədədir. Avroviziya mahnı müsabiqəsi 2017-nin iştirakçıları Kiyev şəhərinə getmək üçün uzun müddətdir hazırlaşır. Siz isə AGBank-ın Visa kartı ilə kampaniya çərçivəsində ödəniş edərək Avroviziya 2017 mahnı müsabiqəsinin yarımfinalına bilet qazanmaq şansı əldə edə bilərsiniz. Uduş şansınızı ikiqat artırmaq üçün Visa kartınızdan xaricdə də istifadə edin. Kampaniyada iştirak etmək üçün www.visa.com.az saytında qeydiyyatdan keçməlisiniz.

# "Public relations" tədbirləri

**(əvvəli 7-ci sayımızda)**

Başlanılan aksiyaların proqnozlaşdırılması və korreksiyası (təshih edilməsi) üçün xüsusi cəlb edilən ekspert və fokus qrupu qiymətli informasiya sayıla bilər. Birinci qrup müxtəlif bilik sahələrində ixtisaslaşan nüfuzlu alimlərdən, peşəkarlardan, siyasətçilərdən ibarət olur və bunlar planlaşdırılan, yüksək inkişaf etmiş tədbirlərə proqnoz qiyməti vermək üçün yaradılır. İkinci qrupa öz xarakteristikasına görə kütləvi auditoriyanın sosial-demokratik strukturunu əks etdirən insanlar daxildir. Peşəkar idarə olunan fokus qrupu ictimai sorğu proqramına qoyulmalı olan məsələləri müəyyən etməyə, televiziya və ya radio verilişlərinin yaradılması üçün mövzu almağa, baş verən tədbirlər üçün spontan (öz-özünə əmələ gələn) qiymətləndirməni əldə etməyə və s. kömək edir.

KİV-lə əlaqələr üzrə işçi qrupunun əsas vəzifəsi kütləvi informasiya vasitələrinin köməyi ilə ictimaiyyəti məlumatlandırmaqdır. Bu qrup iki istiqamətə bölünür: birinci istiqamət cəmiyyəti bilavasitə məlumatlandırmaqdır, o cümlədən mətbuatda dərc olunma və rəsmi materialların (operativ mətbuat qrupu tərəfindən hazırlanmış materialların, müraciətlərin, informasiya tipli xəbərlərin) efirə verilməsi, broşürlərin və informasiya-izahat materiallarının, bukletlərin və bülletenlərin, təqvimlərin və digər suvenir məhsullarının nəşr edilməsi, televiziya və radio verilişləri, kinoxronika üçün xüsusi süjetlərin hazırlanması, şifahi kütləvi informasiya kanalları üzrə xəbərlərin (mühazirələrin, konfransların, seminarların) hazırlanması və yayılması.

İkinci istiqamət KİV işçilərinin məlumatlandırılmasından ibarətdir: mətbuat-relizlərinin, informasiya məktublarının və s. yaradılması və onların redaksiyalara verilməsi, mətbuat konfranslarının və brifinqlərin keçirilməsi, xüsusi seminarların təşkili və s.

İctimaiyyətlə əlaqələr üzrə qrupun vəzifəsi müxtəlif auditoriyalarla və sosial qruplarla iş təmaslarının müəyyənləşdirilməsi, əks əlaqənin təmin edilməsidir. Birbaşa və əks əlaqənin ən məhsuldar formalarına aşağıdakıları aid etmək olar:

- kütləvi informasiya vasitələrinin köməyilə sorğular;
- lektoriyaların (qiraətxanaların), seminarların təşkili;
- radio və televiziyadan istifadə etməklə qaynar xətlərin formalaşması. İnternet şəbəkələri və ya sadəcə təşkilatçıların əlaqə telefonları.
- Qanunverici, icra hakimiyyəti orqanlarının nümayəndələri ilə, nüfuzlu alimlərlə, iş adamları ilə, televiziya aparıcıları ilə jurnalistlərlə şəxsi təmasların təşkili;
- əhalinin müxtəlif qruplarının nümayəndələri ilə bilavasitə təmasların təşkili. Məsləhət-metodik qrup təşkilatın işçilərinin kommunikativ səlahiyyətli problemləri üzrə məsləhətləşmədən başlamış onun imicinin formalaşması üzrə metodikanın tərtib edilməsinə qədər müxtəlif növ məsləhətləşmələrin aparılması üçün yaradıla bilər. Peşəkar təhsillə bağlı vəzifələrin həll edilməsi üçün redaksiya-nəşriyyat qrupuna malik olmaq lazımdır. "Public relations" münasibətinə aiddir:
- nüfuzlu reklam;
- televiziya və radio müxbirlərini dəvət etməklə mətbuat konfransları;
- qeyri-kommersiya xarakterli məqalələr, televiziya və kino filmləri, radio verilişləri;
- müxtəlif yubiley tədbirləri;
- ticarət aparılan ölkənin xeyrinə müxtəlif ictimai və xeyriyyə fəaliyyəti;
- kitab çapı, texnika, iqtisadiyyat, incəsənət sferalarında sponsorluq, elmi-tədqiqat işlərinin, idman yarışlarının və s. maliyyələşdirilməsi;
- əməkdaşlar və vasitəçilər üçün qeyri-reklam nəşrləri;
- müəssisənin fəaliyyəti haqqında illik hesabatlar;
- müsbət imicin formalaşması;
- kütləvi informasiya vasitələrində rəylər. Bu tədbirlərdən istifadə edərək mallar və onların alınması təbliğ olunmur, bu malların insanların rifah halının yüksəldilməsində, əmək şəraitinin yüngülləşməsindəki rolu izah olunur. Bununla belə, bazarda çıxış edən müəssisənin bu ölkənin "yaxşı vətəndaşıdır" fikrinin göstərilməsinə cəhd edilir.



"Public relations" xəbərləri maraq doğurmaqdan və göndərişi yadda saxlamaqdan ötrü yeni, gözlənilməz faktlarla zəngin olmalıdır.

"Public relations"ın korporativ və marketinq növləri fərqləndirilir və bunlar əmtəənin bazarda irəliləyişinin müxtəlif üsullarını tamamlayır və inteqrasiya edir.

"Public relations" sahəsində xüsusi rol oynayır:

- müəssisənin və onun buraxdığı malların imicinin formalaşması istehlakçılara belə bir fikir çatdırmalıdır ki, müəssisənin kommersiya fəaliyyəti hər şeydən əvvəl onun müştərilərinin tələbatlarının ödənilməsinə yönəldilir. Bu məqsədə nail olmaq üçün ən yaxşı vasitə korporativ reklamdır;
- müəssisə və onun malları haqqında yeni, cəlbedici informasiyanın mətbuat üçün hazırlanması. Bir qayda olaraq, bu, pulsuz reklam kimi təqdim olunur;
- sponsorluq – himayədarlığın müasir formalarının inkişafı (idman, mədəniyyət, incəsənət, təhsil, ekologiya və s.).

"Public relations" öz funksiyalarını insan fəaliyyətinin aşağıdakı sferalarında yerinə yetirilə bilər:

- ictimai münasibətlər;
- hökumətlə münasibətlər;
- beynəlxalq və millətlərarası münasibətlər;
- sənayedə və maliyyədə münasibətlər;
- kütləvi informasiya vasitələri.

"Public relations" tədbirləri bir-biri ilə əlaqəli olan dörd müxtəlif hissədən ibarətdir:

- vəzifənin təhlili, tədqiqi və qoyulması;
- tədbirlər proqramının və smetasının işlənib hazırlanması;
- ünsiyyət və proqramın həyata keçirilməsi;
- nəticələrin tənqidi, qiymətləndirilməsi və mümkün işin axıra çatdırılması;

"Public relations" sferasında həyata keçirilən başlıca tədbirlər aşağıdakılardır:

- nüfuzlu reklamın təşkili və aparılması;
- mətbuat-relizlərinin hazırlanması və yayılması;
- mətbuat konfranslarının təşkili və keçirilməsi;
- KİV üçün müəssisə rəhbərləri ilə müsahibənin təmin edilməsi;
- elmi-texniki mətbuatda, ixtisaslaşdırılmış və sahə nəşrlərində, kataloqlarda və sorğu kitabçalarında qeyri-kommersiya xarakterli məqalələrin dərc edilməsi;
- müxtəlif növ yubiley tədbirlərinin keçirilməsi;
- elm və incəsənətə dair kitabların nəşr edilməsi üzrə sponsor fəaliyyəti, təşkilata münasibətdə və idman, xeyriyyəçilik, mədəni tədbirlər və ekspedisiyalar üzrə qismən və tam sponsorluq;
- müəssisənin illik hesabatlarının nəşri (onun kommersiya və digər fəaliyyəti haqqında);
- əməkdaşlar və vasitəçilər üçün reklam xarakterli firma nəşrlərinin buraxılışı;
- KİV işçilərinin, geniş ictimaiyyətin, o cümlədən şəhərə ekskursiyaya gələnlərin müəssisəyə ziyarətinin təşkili;
- xarici mütəxəssislərin iştirakı ilə elmi-texniki konfransların təşkili və keçirilməsi.

Bu tədbirlərin həyata keçirilməsi üçün elm, istehsal və kommersiya sahəsində müəssisənin uğurları ilə bağlı praktiki cəhətdən hər hansı bir hadisədən istifadə etmək olar.

Hazırda "Public relations"ın məqsədi ümumi təsəvvürlərin və maraqların aşkar edilməsi üçün ikitərəfli ünsiyyətin müəyyənləşdirilməsi və həqiqətə, biliyə və tam məlumatlılığa əsasalanaraq qarşılıqlı anlaşmaya nail olmaqdır.

Beləliklə, "Public relations"ın ümumi məqsədi anlaşma və etimada nail olunması və qorunub saxlanılmasıdır ki, anlaşma və etimad da öz növbəsində hərəkətlərdə uyğunlaşmaya nail olmaq üçün bazaya çevrilməlidir.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Bakcell abunəçiləri "İnstagram"dan pulsuz istifadə edə bilərlər

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti öz abunəçiləri üçün növbəti unikal internet təklifini təqdim edir. Bundan sonra smartfonu olan bütün Bakcell abunəçiləri eksklüziv İnstagram paketləri ilə "İnstagram"dan pulsuz istifadə edəcəklər. Paketlər həm fakturasız, həm də fakturalı xətt abunəçiləri üçün təklif olunur.

Yeni İnstagram paketlərinə internetdə istənilən məqsədlər üçün istifadə olunan əsas trafik həcmi (MB) və xüsusi bonus – İnstagram istifadəsi üçün pulsuz trafik daxildir. "İnstagram"dan pulsuz istifadə üçün verilən trafik həcmi (MB) əsas internet həcminə bərabər olacaq və abunəçilərə əsas trafikdən istifadə etmədən müxtəlif şəkil və videolar yükləməyə və xəbər lentini nəzərdən keçirməyə imkan verəcək.

Əsas paketdə təqdim edilən trafik tükəndikdən sonra, əlavə hər 1 MB üçün xidmət haqqı 0.05 AZN təşkil edəcək.

iOS, Android, Windows, Blackberry və digər əməliyyat sistemləri ilə çalışan bütün smartfon istifadəçiləri yuxarıdakı təklifdən faydalana bilərlər. Qiymətlərə bütün müvafiq vergilər daxildir.

Yeni İnstagram trafikini yoxlamaq üçün Bakcell abunəçiləri sadəcə *134*559#YES yığmalıdırlar. Onlar həmçinin *134*555#YES yığmaqla paketi yenidən əldə edə və ya *134*0#YES yığmaqla xidməti deaktivasiya edə bilər.

Abunəçinin balansında kifayət qədər məbləğ olduğu halda, yeni "Instagram" paketləri hər ay avtomatik qaydada yenilənəcək.




# "Mənzillər mehmanxanalara ciddi zərbə vurur"

Müxtəlif mənzillərin apartamentlər kimi, bəzilərinin isə hostel adı ilə fəaliyyət göstərməsi mehmanxanalara ciddi zərbə vurur.

Bunu DAİR Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin Sədri Samir Dübəndi bildirib.

"Son bir neçə il ərzində ölkəyə səfər edən turistlərin sayının artması, ekonom seqmentdə fəaliyyət göstərən mehmanxanaların isə ümumi nömrə fondunun çatışmazlığı, xüsusən də Bakı şəhərində mənzil fondunun aktivləşməsinə gətirib. Yəni, turistlərə müxtəlif mənzillərin apartamentlər kimi, bəzilərinin isə hostel adı daşıyaraq təklif olunduğu ortaya çıxıb. Bu fakt həm mehmanxanalara ciddi zərbə vurur, həm də turizm bazarında keyfiyyətsiz və turistlərin təhlükəsini şübhə altına salan xidmətlərin təklif edilməsi kimi qiymətləndirilir".



Onun sözlərinə görə, digər tərəfdən mənzil sahibləri kütləvi şəkildə vergidən yayınırlar: "Bunları tənzimləmək lazımdır, yerli mehmanxanaların maraqları qorunmalıdır. Əgər kimsə öz mənzilini turistlərə və yaxud ölkəyə səfər edən qonaqlara və eyniliklə yerli turistlərə, ezamiyyətdə olan şəxslərə icarəyə vermək istəyirsə, bu əmlak mütləq müvafiq standartlara cavab verməlidir. Baxmayaraq ki, standartda mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatında "Rezidens (apartment complex; residence) – studio tipli otaqlar və mənzillərdə yerləşmə xidmətini təmin edən yerləşdirmə vasitəsi" izahlı olaraq göstərilib, bu sahəyə nəzarət zəifdir. Təsnifat sistemində dəyişikliklərlə və yaxud digər normativ-hüquqi sənədlərlə bu məsələni qaydaya gətirmək olar".

Samir Dübəndi bildirib ki, Azərbaycandakı mehmanxanaların yarısından çoxu 4 ulduz kateqoriyasına aiddir, təsnif edilmiş mehmanxanaların təxminən 22%-i 5 ulduzludur, eyni sayda 3 ulduzlu və cəmi 2%-i 2 ulduzlu mehmanxanalardır.

"Qeyd etmək zəruridir ki, bu, heç də ürəkaçan mənzərə deyil. Çünki ölkədə fəaliyyət göstərən mehmanxanaların çox az faizi təsnif edilibdir. Hesab edirik ki, bu sahədə geniş təşviqat və təbliğat işi aparılmalıdır. Əgər kütləvi turizmin inkişafına nail olmaq istəyiriksə, bu halda mütləq 1, 2, 3 ulduzlu mehmanxanalar, hostellər kimi müəssisələrin sayını artırmalıyıq. Bu isə yalnız biznesi bu istiqamətdə həvəsləndirməklə və daha əlverişli iqtisadi imkanların yaranması ilə realizə edilə bilər.

Araşdırmalar onu da göstərir ki, təsnif edilmiş mehmanxanalar sırasında minimal tələblərə cavab verən və bunlara fəaliyyətlərində riayət edən müəsissələrin sayı olduqca azdır. Biz əminliklə bilirik ki, bu kateqoriyalı mehmanxanalara şamil edilən bir sıra minimal tələblərə onlar cavab vermirlər və buna hamı göz yumur. Bunlar sırasında bir neçə ən vaciblərini sadalamaq istərdik: istehlakçıların rəy və təkliflərini öyrənmək üçün sistem aparılmır, personalın təlim və hazırlığı üzrə plan aparılmır, baxmayaraq ki, bütün kateqoriyalar üçün minimal tələb hesab edilən personalın ən azı 50%-nin müvafiq peşə sertifikatının olmasına riayət edilmir, İSO 22000 Qida Məhsullarının Təhlükəsizliyi Sistemi tətbiq edilmir, naməlum və yaxud gizli qonaq sistemi tətbiq edilmir və sairləri. Nəticə etibarilə bütün bunlar göstərilən xidmətlərin keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır".

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyevə əzizi

**YUNİS ƏSƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150**